HARUN YƏHYA

# DƏRİN DÜŞÜNMƏK

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: “Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!
(Ali İmran surəsi, 191)

# MÜNDƏRİCAT

Giriş

Dərin düşünmək

İnsanlar ümumiyyətlə nələr düşünər?

Düşünməyə mane olan səbəblər hansılardır?

Üzərində düşünülməsi lazım olan şeylər

Quran ayələri üzərində düşünmək

Nəticə

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra

müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Dünyaya gəlmədən əvvəl heç bir şey olmadığınızı və heç bir şey olmadığınız bir anda yaradıldığınızı heç düşündünüzmü?

Salonunuzda hər gün gördüyünüz çiçəyin qapqara palçıqlı bir torpaqdan, necə bir yolla, təmiz və gözəl bir qoxuyla və rəngarəng çıxdığını heç düşündünüzmü?

Ətrafınızda uçub sizi daim narahat edən ağcaqanadın, necə olub da, qanadlarını bizim görə bilməyəcəyimiz qədər sürətlə hərəkət etdirdiyini heç düşündünüzmü?

Bananın, qarpızın, qovunun, portağalın qabıqlarının keyfiyyətli bir paket vəzifəsini yerinə yetirdiyini, bu meyvələrin dadlarının və qoxularının qorunması üçün xüsusilə bu paketlərin içinə qablaşdırıldığını heç düşündünüzmü?

Gecəyarısı siz yatarkən qəflətən baş verə biləcək bir zəlzələnin yaşadığınız şəhəri, evinizi, iş yerinizi tamamilə dağıdacağını, dünyada sahib olduğunuz hər şeyi bir neçə saniyə ərzində itirə biləcəyinizi heç düşündünüzmü?

Həyatınızın böyük bir sürətlə gəlib keçdiyini, bir gün gücdən düşərək yaşlanacağınızı, gözəlliyinizi, sağlamlığınızı, gücünüzü yavaş-yavaş itirəcəyinizi heç düşündünüzmü?

Bir gün heç gözləmədiyiniz bir anda Allahın vəzifələndirdiyi ölüm mələklərini qarşınızda görərək bu dünyadan ayrılacağınızı heç düşündünüzmü?

Bəs insanların qısa müddətdə tərk edəcəkləri bir dünyaya niyə bu qədər çox bağlandıqlarını və əslində axirət üçün səy göstərmələri lazım olduğunu heç düşündünüzmü?

İnsan Allahın yaratdığı və düşünmə qabiliyyəti verdiyi bir varlıqdır. Lakin insanların əksəriyyəti bu çox əhəmiyyətli qabiliyyəti lazım olduğu kimi istifadə etmirlər. Hətta demək olar ki, heç düşünmədiklərini söyləyən insanlar belə vardır.

Halbuki hər insan özünün belə fərqində olmadığı bir düşünmə imkanına malikdir. İnsan bu imkandan istifadə etməyə başladığında o günə qədər dərk edə bilmədiyi bir çox həqiqəti görər. Dərin düşünməyə başladıqca düşünmə imkanı inkişaf edər və bu hər kəs üçün mümkündür. Ancaq bu məqamda əhəmiyyətli olan insanın "düşünməsinin" lazım olduğunu dərk etməsidir. Əlinizdəki bu kitabın yazılmasındakı məqsəd də "lazım olduğu kimi düşünmə"yə dəvət etmək və "lazım olduğu kimi düşünmə"nin yollarını göstərməkdir. Çünki düşünməyən insan həqiqətlərdən tamamilə uzaq qalacaq, yanılmalar və səhvlər içində bir həyat yaşayacaq. Bunun nəticəsində də dünyanın yaradılış məqsədini və özünün yer üzündə mövcudluq məqsədini qavraya bilməyəcəkdir. Halbuki Allah hər şeyi bir məqsədlə yaratmışdır. Bu həqiqət Quranda belə bildirilir:

**Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün və əbəs yerə yaratmadıq. Biz onları əsl həqiqət kimi yaratdıq, lakin çoxları bunu bilmir. (Əd-Duxan surəsi, 38-39)**

**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?" (Muminun surəsi, 115)**

Başqa sözlə hər insan ilk növbədə özünün, daha sonra kainatda gördüyü hər şeyin və həyatı boyunca qarşılaşdığı hər hadisənin yaradılış məqsədini düşünməlidir. Düşünməyən bir insan həqiqətləri ancaq öldükdən sonra Uca Rəbbimiz Allahın hüzurunda açıqlama verərkən başa düşər, amma artıq çox gec qalmışdır.

Allah, Quranda hər insanın haqq-hesab günündə düşünüb həqiqəti görəcəyini belə bildirir:

**O gün Cəhənnəm də gətirilmişdir. İnsan o gün düşünüb xatırlayar. Lakin bu xatırlamanın ona nə faydası?**

**O: "Kaş axirət həyatım üçün əvvəlcədən hazırlıq görəydim!" deyər. (Fəcr surəsi, 23-24)**

Allah bizə dünya həyatında fürsət vermişkən düşünmək və düşündüklərimizdən nəticə çıxardaraq həqiqətləri görmək, axirət həyatımızda bizə böyük bir qazanc təmin edəcəkdir. Bu səbəblə də Allah, elçiləri və kitabları vasitəsi ilə bütün insanları, özlərinin və bütün kainatın yaradılışı haqqında düşünməyə çağırmışdır. Ayədə belə buyurulur:

**Məgər onlar özləri barəsində düşünmürlərmi?. Allah göyləri, yeri və onların arasındakıları ancaq bir gerçəklik kimi və müəyyən müddətə qədər yaratmışdır? Lakin, insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir. (Rum surəsi, 8)**

**Hörmətli Adnan Oktarın 15 iyul 2008-ci il tarixində canlı olaraq yayımlanan Ahi TV-də (Kırşehir) verdiyi müsahibədən bir hissə...**

**ADNAN OKTAR:** Harun Yəhya əsərləri əvvəlcə iman həqiqətlərini hədəf alan, iman həqiqətlərinin əhəmiyyətinə diqqət çəkən əsərlərdir. Çünki insanlara bir şey təklif etmədən əvvəl, onların imanının gücləndirilməsi çox əhəmiyyətlidir. Çox güclü

bir imana sahib olmaları əhəmiyyətlidir. Güclü iman üçün də iman həqiqətləri çox əhəmiyyətlidir. Yəni Allahın yaradılışdakı möcüzələri. Allah Quranda tez-tez: "Düşünmürlərmi" deyər (şeytandan Allaha sığınıram). Bu mövzu mübarək, böyük alim ustad Bədiüzzaman Səid Nursi həzrətləri tərəfindən çox əhəmiyyətlə dilə gətirilmiş bir mövzudur. Olduqca əhəmiyyətli bir mövzudur. Yəni, məsələn, türk milləti imanlı bir millətdir. Bu imanlı olmağın gözəl nəticələrini hər yerdə görürük, amma bu onların iman həqiqətlərini, Allahın sənətini hər yerdə görmələri və əziyyət əhli olmalarıdır. Bizim millətimiz əzabkeş millətdir.

# DƏRİN DÜŞÜNMƏK

Bir çox insan "dərin düşünmək" üçün başını iki əlinin arasına qoymasının, bir otağa, hətta bir növ təfəkkür hücrəsinə çəkilib, bütün insanlardan və hadisələrdən uzaqlaşmasının lazım olduğunu zənn edər. Hətta "dərin düşünməyi" o qədər gözündə böyüdər ki, bunu özü üçün böyük bir iş hesab edər; bunun ancaq "mütəfəkkirlərə" aid bir xüsusiyyət olduğunu zənn edər. Halbuki Allah insanları düşünməyə çağırır və **"bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik" (Sad surəsi, 29)** ayəsiylə Quranı insanların düşünmələri üçün endirdiyini bildirir. Əhəmiyyətli olan insanın düşünmə qabiliyyətini səmimiyyətlə inkişaf etdirməsi, dərin düşünməyə başlamasıdır.

Bu mövzuda səy göstərməyən insanlar isə həyatlarını böyük bir "qəflət" içində keçirərlər. Qəflət sözü; "unutmadığı halda etinasız yanaşmaq, tərk etmək, yanılmaq, əhəmiyyət verməmək, diqqətsizlik etmək" kimi mənalar verir. Düşünməyən insanların yaşadıqları qəflət halı da, yaradılış məqsədlərini və dinin bildirdiyi həqiqətləri unutmağın və ya bunları bilərək görməzlikdən gəlməyin bir nəticəsidir. Ancaq bu bir insan üçün olduqca təhlükəli və sonu cəhənnəmə gedib çıxan bir yoldur. Necə ki, Allah insanları qəflətə qapılmamaq mövzusunda belə xəbərdar etmişdir:

**Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma. (Əraf surəsi, 205)**

**Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər. (Məryəm surəsi, 39)**

Quranda, düşünüb, vicdanı sayəsində həqiqətləri görən və bundan ötrü də Allahdan qorxub çəkinən insanlardan bəhs edilir. Heç düşünmədən, atalarından gördükləri batil inanc və düşüncələri kor-koranə tətbiq edənlərin isə səhvliyə yol verdikləri xəbər verilir. Bu kəslərdən soruşulduğu vaxt Allaha inandıqlarını deyirlər. Ancaq lazım olduğu kimi düşünmədikləri üçün Allahdan qorxub çəkinərək davranışlarını düzəltməzlər. Aşağıdakı ayələrdə düşünməyən bu kəslərin zehniyyəti belə xəbər verilir:

**De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?"** ***Onlar: "Allahındır!" deyəcəklər. De: "Yenə də öyüd alıb düşünməyəcəksiniz?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" deyəcəklər. De: "Yenə də qorxub çəkinməyəcəksiniz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər***

*şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" deyəcəklər. De: "Bəs necə olur ki, sehrlənirsiniz?".* Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar!. (Muminun surəsi, 84-90)

## Düşünmək insanlar üzərindəki sehri aradan qaldırar

Allah ayələrdə insanlara: **"Bəs necə olur ki, sehirlənirsiniz?"** deyə sual verir. Ayədə keçən sehr sözü, insanları kütləvi halda təsiri altına alan zehni bir keyliyə işarə edir. Düşünməyən insanın ağlı keyləşər, beyni dumanlanar, yəni gözünün qarşısındakı həqiqətləri görməmiş kimi davranar, mühakimə qabiliyyəti zəifləyər. Çox aydın bir şeyi qavramaqdan belə məhrum olar. Çox yaxınlığında baş verən fövqəladə hadisələri belə dərk edə bilməz. Hadisələrin düyün nöqtələrini dərk edə bilməz. İnsanların minlərlə ildir ki, qəflət içində olmaları, bir-birləri üçün qoyub getdikləri bir miras kimi kütləvi halda dərin düşünməkdən uzaq qalmalarının səbəbi də bu keyləşmədir.

Kütlələri təsiri altına alan bu sehrin təsirlərindən birini belə bir misalla açıqlaya bilərik:

Yerin altı, başdan-başa maqma dediyimiz bir "od təbəqəsi" ilə örtülüdür. Yer qabığı olduqca nazikdir; yəni, bu od bizə çox yaxın, demək olar ki, ayağımızın altındadır. Yer qabığının nə qədər nazik olduğunu anlamaq üçün belə bir müqayisə apara bilərik: Yer qabığının yer kürəsiylə müqayisədə sahib olduğu qalınlıq, bir alma qabığının almayla müqayisədə sahib olduğu qalınlıqla qarşılaşdırıla bilər.

Yerin altında çox yüksək temperaturda qaynayan bir təbəqə olduğu hamıya məlumdur, ancaq insanlar bu mövzu haqqında o qədər də düşünməzlər. Çünki bu insanların ata-anaları, qardaşları, qohumları, dostları, qonşuları, oxuduqları qəzetin müəllifləri, televiziya aparıcıları, universitetdəki müəllimləri də bunu düşünməz.

Biz sizi bu mövzuda bir az düşündürək. Bir insanın yaddaşını itirdiyini və ətrafındakılardan soruşa-soruşa ətrafı tanımağa çalışdığını fərz edək. Bu insan əvvəlcə harada olduğunu soruşacaq. Ona ayaq basdığı torpağın altında qaynayan odlu bir kürə olduğu, güclü bir zəlzələdə və ya bir vulkan püskürməsində bu alovların yer səthinə çıxa biləcəyi deyilsə nə düşünər? Bir az daha irəli gedək və bu insana dünyanın yalnız kiçik bir planet olduğunun və kosmos deyilən ucu-bucağı bilinməyən qaranlıq bir boşluqda dövr etdiyinin də deyildiyini fərz edək. Yerin alt təbəqəsindəki qaynar maqma təhlükəsinə nisbətən kosmosda daha böyük təhlükələr var. Məsələn, tonlarla ağırlıqdakı meteoritlər orada nizamsız hərəkət edirlər. Bunların dünyaya yönəlməmələri və toqquşmamaları üçün heç bir səbəb yoxdur.

Əlbəttə ki, bu insan içində olduğu təhlükəli vəziyyəti bir an belə ağlından çıxara bilməz. Bu cür həssas tarazlıqdakı bir mühitdə insanların həyatlarını necə davam etdirdiklərini araşdırar və qüsursuz şəkildə işləyən bir sistemin yaradıldığını dərk edər. Yaşadığı planet böyük bir təhlükə ilə doludur, amma bu təhlükənin hər an

insanlara zərər verməsinin qarşısı da çox həssas tarazlıqlarla alınmışdır. Məhz bunu dərk edən insan, dünyanın və dünyadakı bütün canlıların Allahın diləməsiylə, Onun yaratdığı qüsursuz bir tarazlıq sayəsində yaşadıqlarını və təhlükəsizlik içində varlıqlarını davam etdirdiklərini anlayar.

Bu nümunə, insanların üzərində düşünmələri lazım olan milyonlarla, bəlkə də, milyardlarla mövzudan sadəcə biridir. Qəflətin insanın düşünüb qavrama qabiliyyətinə necə bir təsir göstərdiyini, insanın zehni potensialını necə məhdudlaşdırdığını anlaya bilmək üçün bir nümunə daha vermək faydalı olacaq:

İnsanlar dünya həyatının böyük bir sürətlə keçib tükəndiyini bilirlər, amma buna baxmayaraq, sanki bu dünyadan heç ayrılmayacaqlarmış kimi bir rəftar göstərirlər. Sanki dünyada ölüm yoxmuş kimi davranarlar. Məhz bu da nəsildən-nəslə köçürülən bir cür "sehrdir". Hətta bunun elə güclü bir təsiri vardır ki, bir adam ölümdən bəhs etsə, insanlar üzərlərindəki sehrin pozulmasından və həqiqətlərlə üz-üzə gəlməkdən olduqca qorxaraq bu mövzunu dərhal dəyişdirtdirərlər. Bütün həyatlarını gözəl bir mənzil, bağ evi və avtomobil almaq, uşaqlarını nüfuzlu məktəblərdə oxutmaq uğrunda sərf etmiş insanlar, bir gün öləcəklərini və yanlarında nə avtomobillərini, nə evlərini, nə də uşaqlarını apara bilməyəcəklərini düşünmək istəməzlər. Çıxış yolu olaraqsa, ölümdən sonrakı əsl həyat üçün bir şey etməyə başlamaq əvəzinə, düşünməməyi seçərlər. Halbuki hər insan tez ya da gec, mütləq öləcək. Və öldükdən sonra, hər insan üçün, (iman edən və ya etməyən) sonsuz bir həyat başlayacaq. Bu sonsuz həyatın cənnətdə və cəhənnəmdə yaşanılacağı isə bu qısa dünya həyatında etdikləri əməllərdən asılıdır. Bu qədər açıq bir həqiqət olduğu halda, insanların sanki ölüm yoxmuş kimi davranmalarının tək səbəbi düşünməmələrindən ötrü özlərini bürüyən bu sehrdir. Ancaq dünya həyatında düşünərək özünü bu sehrdən, digər bir sözlə qəflət halından qurtaran kəslər, öldükdən sonra həqiqətləri gözləri ilə görərək anlayacaqlar. Uca Rəbbimiz Allah bu həqiqəti Quranda belə xəbər verir:

**Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!". (Qaf surəsi, 22)**

Ayədə də bildirildiyi kimi, düşünmədikləri üçün bulanıqlaşan görmə, öldükdən sonra axirətdə açıqlama verərkən "dəqiqləşəcək".

Bunu da qeyd etmək lazımdır ki, insanlar öz-özlərini "bilə-bilə" belə bir sehrə salırlar. Bu şəkildə rahat bir həyat yaşayacaqlarını güman edərək hərəkət edirlər. Halbuki əsl rahatlıq, dinclik, şadlıq və firavanlıq, ancaq ağlı kütləşdirən bu sehrin aradan qalxmasıyla əldə olunar. Üstəlik insanın bir anda qərar verib bu zehni keylikdən xilas olması, açıq bir şüurla yaşamağa başlaması çox asandır. Allah bunun həllini insanlara təqdim etmişdir; düşünən insanlar dünyada yaşadıqları vaxt bu

sehrdən xilas olarlar. Beləcə hadisələrin bir məqsədi və iç üzü olduğunu başa düşə və Allahın hər an yaratdığı hikmətləri görə bilərlər.

### İnsan hər an, hər yerdə düşünər

Düşünmənin vaxtı, yeri və şərtləri olmaz. İnsan yolda yeriyərkən, işə gedərkən, avtomobili idarə edərkən, kompyuterdə çalışarkən, bir yoldaş yığıncağında olarkən, televiziya seyr edərkən, yemək yeyərkən düşünə bilər.

Məsələn, avtomobillə gedərkən çöldə yüzlərlə insan görmək mümkündür. Bu insanlara baxan adam bir çox fərqli şey düşünə bilər. Gördüyü yüzlərlə insanın fiziki görünüşlərinin bir-birindən tamamilə fərqli olduğu ağlına gələ bilər. Bu insanların biri digərinə qətiyyən bənzəmir. İnsanların təməldə göz, qaş, kirpik, əl, qol, qıç, ağız, burun kimi eyni orqanlara sahib olmalarına baxmayaraq, bir-birlərindən bu qədər fərqli olmaları heyrətamiz bir vəziyyətdir. Hətta insan bir az daha düşünməyə davam etsə bunu xatırlayar: Allah minlərlə ildir ki, milyardlarla insanı bir-birindən tamamilə fərqli şəkildə yaratmışdır. Şübhəsiz ki, bu, Allahın açıq-aşkar varlığının və üstün yaratmasının dəlillərindən biridir.

Müəyyən bir mövqeyə çatmağa çalışan bu qədər çox insanı seyr edən adam, daha fərqli düşüncələrə də qapıla bilər. İlk baxışda bu insanların hər biri "tamamilə ayrı" bir şəxsiyyət kimi görünür. Hamısının özlərinə aid bir aləmləri, arzuları, planları, həyat tərzləri, sevindikləri və kədərləndikləri mövzular, zövqləri vardır. Amma bu fərqliliklər aldadıcıdır. Çünki ümumiyyətlə hər insan dünyaya gələr, böyüyər, məktəbə gedər, iş axtarar, işləyər, evlənər, uşaq sahibi olar, uşağını məktəbə göndərər, uşağını evləndirər, yaşlanar, baba və ya nənə olar və ölər. Yəni bu baxımdan baxdıqda insanların həyatları arasında böyük fərqliliklər mövcud deyil. Bir insanın İstanbulun hər hansı bir bölgəsində və ya Meksikanın bir şəhərində yaşamasının dəyişdirdiyi heç bir şey yoxdur. Bu insanların hər biri mütləq bir gün öləcəkdir; hətta 100 il sonra bu insanlardan bəlkə də biri belə həyatda qalmayacaq. Məhz bunları dərk edən adam düşünməyə davam edər və özünə bu sualları verər: "Bir gün hamımız öləcəyimizə görə, niyə hər kəs bu dünyadan heç ayrılmayacaqmış kimi davranır? Öləcəyi qəti olan bir insanın ölümdən sonrakı həyatı üçün çalışması lazım olduğu halda, demək olar ki, bütün insanlar necə olub da, sanki heç dünya həyatları sona çatmayacaqmış kimi davrana bilirlər?"

Məhz bu insan, düşünən və düşündüklərindən əhəmiyyətli bir nəticəyə gələ bilən adamdır. Amma insanların böyük bir hissəsi bu mövzuları düşünməz. Birdən "indi nə düşünürsən?" deyə sual verilsə, olduqca əhəmiyyətsiz və özlərinə bir fayda verməyəcək şeylər düşündükləri aydın olar. Halbuki insan, oyandığı andan yatana qədər keçən zaman ərzində hər an "mənalı", "hikmətli", "əhəmiyyətli" mövzuları "düşünə bilər", düşündüklərindən isə nəticələr çıxara bilər.

Allah Quranda möminlərin hər şərtdə düşündüklərini və bu düşüncələrindən faydalı nəticələr çıxardıqlarını belə bildirir:

**Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!. (Al-i İmran surəsi, 190-191)**

Ayədə də bildirildiyi kimi möminlər düşünən insanlar olduqları üçün, həm yaradılışdakı möcüzələri görə bilir, həm də Allahın gücünü, elmini və ağlını təqdir edə bilirlər.

**Səmimi surətdə və Allaha yönələrək düşünmək**

Düşünmənin bir adama fayda verməsi, onu doğru nəticəyə gətirə bilməsi üçün insan daim pozitif düşünməlidir. Məsələn, bir insan qarşısında özündən olduqca gözəl birini gördüyündə, bu adamın gözəlliyini düşünüb öz qüsurlarından ötrü bir məzlumluq hiss etsə və ya o adamı qısqansa bu Allahın razı olmayacağı bir düşüncə olar. Ancaq Allahı razı salmaq məqsədini güdən bir insan, bu adamın gözəlliyinin Allahın qüsursuz yaratmasının bir təcəllisi olduğunu düşünər. Bu adama Allahın yaratdığı bir gözəllik olaraq baxdığından ötrü böyük bir zövq alar. Axirətdə Allahın bu adamın gözəlliyini artırması üçün dua edər. Həmçinin özü üçün də Allahdan axirətdə həqiqi və əbədiyyən davam edəcək bir gözəllik istəyər. Dünyada insanın heç vaxt qüsursuz ola bilməyəcəyini, çünki dünyanın imtahanın bir tələbi olaraq əskik yaradıldığını düşünər. Cənnətə olan həsrəti artar. Şübhəsiz ki, bu, səmimi düşüncənin yalnız bir nümunəsidir. İnsan həyatı boyunca bir çox dəfə bu cür hadisələrlə qarşılaşar. Bu hadisələr zamanı Allahın məmnun olacağı bir əxlaq nümayiş etdirib-etdirməyəcəyi sınaqdan keçirilər.

Əlbəttə ki, sınaqdan müvəffəqiyyətlə keçə bilməsi və düşünmənin özünə axirət həyatı üçün bir xeyir gətirməsi, insanın düşündüyü şeylərdən öyüd və ibrət almasından asılıdır. Bunun üçünsə insanın daim düşünməsi şərtdir. Allah bu həqiqəti Quranda belə bildirmişdir:

**Sizə Öz dəlillərini göstərən və göydən ruzi nazil edən məhz Odur. Səmimi qəlbdən Allaha yönələndən başqası öyüd alıb düşünməz! (Mömin surəsi, 13)**

**Hörmətli Adnan Oktarın 8 aprel 2009-cu il tarixində canlı olaraq yayımlanan, Tempo Tv-də verdiyi müsahibədən bir hissə...**

**ADNAN OKTAR:** İnsan, Allaha qulluq etməsi üçün yaradılmışdır. Qulluq vəzifəsi vardır. Lakin Allah bizləri imtahan edir; amma imtahanda bizim nə etdiyimizə nəzarət etdikdən və təsbit etdikdən sonra, Allahın bizim necə bir adam olduğumuzu anlamağa ehtiyacı yoxdur. Allah onsuz da bunları xeyli əvvəldən bilir. Çünki bütün bunları Allah yaratmışdır. Allah bilir, nə etdiyimizi bilir. Allahın batindəki əsl məqsədi, bizə özümüzü tanıtmaqdır; yəni, biz necə bir insanıq, əxlaqımız necədir, şəxsiyyətimiz necədir?... Əgər Allah nəsib etsə və beləliklə cənnətə getsək, biz özümüz üçün; "Çox yaxşı adamdım, xidmət edərdim, danışardıq, söhbət edərdik, təbliğ edərdim, kasıblara yardım edərdim, insanları çətinliyə düşdükləri vaxtda dəstəkləyərdim" deyərək, bizdə özümüzə qarşı bir sevgi yaranacaq. Yəni, cənnətdə biz bir dəyər qazanmış olacağıq.

# İNSANLAR ƏSASƏN NƏLƏR DÜŞÜNƏR?

Əvvəlki hissələrdə insanların lazım olduğu kimi düşünmədiklərindən, düşünmə qabiliyyətlərini formalaşdırmadıqlarından bəhs etdik. Ancaq burada səhv başa düşülməməsi lazım olan bir nöqtə vardır. Əlbəttə ki, hər insan həyatının hər anında ağlından bir şey keçirər. İnsan zehninin bomboş olduğu vaxtlar (yuxu halından başqa) o qədər də çox deyil. Ancaq bu düşüncələrin böyük bir qismi axirəti üçün fayda verməyəcək, "boş və lazımsız", insanı heç bir nəticəyə aparmayan, insana heç bir şey qazandırmayan, faydasız düşüncələrdir.

İnsan gün ərzində nələr düşündüyünü xatırlamağa çalışsa və bunları bir yerə qeyd etsə, günün sonunda da bunları nəzərdən keçirsə, bir çoxunun nə qədər faydasız olduğunu anlayacaq. Və ya bunların bir qismini faydalı belə görsə, səhv düşünə bilər. Çünki ümumiyyətlə insanlara doğru gələn şeylər həqiqətdə, axirətdə onlara heç bir fayda verməyəcək düşüncələr ola bilər.

İnsanlar gündəlik həyatları ərzində necə boş işlərlə məşğul olub boş vaxt keçirə bilirlərsə, eyni şəkildə boş düşüncələrə qapılaraq da boş yerə vaxt keçirə bilərlər. Allah Quranda; **"Onlar, 'bütün boş' şeylərdən üz çevirənlərdir" (Muminun surəsi, 3)** ayəsiylə möminləri tərifləyir və bu gözəl rəftarı nümunə olaraq göstərir. Allahın bu əmri, şübhəsiz ki, insanın düşüncələri üçün də məqbuldur. Əgər insan düşüncələrinə şüurlu surətdə hakim olmazsa, o, insanın zehnindən davamlı axıb gedər. İnsan şüursuz surətdə bir düşüncədən başqa bir düşüncəyə keçər. Axşam evə gedərkən edəcəyi alış-verişi düşünərkən, bir anda iki il əvvəl bir yoldaşının özünə dediyi sözü düşündüyünü dərk edər. Bu qeyri-ixtiyari və faydasız düşüncələr gün ərzində fasiləsiz davam edə bilər.

Halbuki düşüncələrinə hakim olmaq insanın öz əlindədir. Hər insan şüurlu bir istiqamətləndirmə ilə, özünü, imanını, ağlını, rəftarını, ətrafını inkişaf etdirən şeylər düşünmə qabiliyyətinə malikdir.

Bu hissədə qəflət içində olan insanların ümumiyyətlə nə kimi şeylər düşünməyə yönəldiklərindən bəhs edəcəyik. Bu mövzuların təfərrüatlı şəkildə izah edilmə səbəbi, bu kitabı oxuyan insanların, məsələn, sabahısı gün işə və ya məktəbə getdikdə və ya hər hansı bir iş görərkən, zehinlərindən burada sayılanlara bənzər bir şey keçdiyində, dərhal boş bir şey düşündüklərini dərk etmələri və düşüncələrinə hakim olaraq özlərinə həqiqi mənada fayda verəcək şeylər düşünmələrini təmin etməkdir.

### Boş xülyalar

İnsan düşüncələrinə xeyir gətirəcək istiqamətdə nəzarət etmədiyi vaxt tez-tez vəsvəsəyə düşə bilər və ya olmamış hadisələri zehnində sanki olmuş kimi xəyal edib bunlar üçün kədərlənə bilər, çətinliyə, narahatlığa və ya qorxu hissinə qapıla bilər.

Məsələn, uşağı universitet imtahanlarına hazırlaşan bir insan, hələ imtahan baş tutmadan, uşağının imtahanı keçə bilmədiyi təqdirdə nələr ola biləcəyini xəyal edər: "Oğlu gələcəkdə yaxşı bir iş tapa bilməzsə, kifayət qədər pul qazana bilməzsə, onda evlənə bilməz. Evlənsə belə toy xərclərini necə ödəyə bilər? İmtahanı keçə bilməzsə atasının hazırlıq kurslarına verdiyi pullar hədər olacaq, üstəlik insanlar içində də biabır olacaqlar. Bəs ən yaxşı yoldaşının uşağı imtahandan keçsə, öz uşağı keçə bilməsə..."

Narahatçılıq yaradan bu boş xəyallar beləliklə uzanıb gedər. Halbuki, uşağı daha imtahana belə girməmişdir. Din əxlaqından uzaq olan hər insan həyatı boyunca bu cür boş xülyalara qapılmaqdan uzaqlaşa bilməz. Əlbəttə, bunun bir səbəbi vardır. Quranda insanların boş xülyalardan xilas ola bilməmələrinin səbəbinin şeytanın təlqinlərinə qulaq asmaq olduğu belə xəbər verilmişdir:

**Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam... (Nisa surəsi, 119)**

Yuxarıdakı ayədə göründüyü kimi boş xülyalara qapılan, Allahı unudan və düşünməyən bir insan əslində daim şeytanın təlqinlərinə açıqdır. Digər bir ifadə ilə bir insan dünya həyatına aldanaraq iradə işlətməzsə, vicdanlı davranmazsa və özünü hadisələrin gedişatına buraxarsa tamamilə şeytanın nəzarəti altına düşər. Şeytanın ən diqqətə çarpan xüsusiyyətlərindən biri də insanlara vəsvəsə və boş düşüncələr verməsidir. Məhz zehinlərdə uydurulan bu xülyalar, pessimizm və "bəs belə olsa mən nə edərəm?" narahatlıqları şeytanın təlqinləri ilə meydana gələr.

Amma Allah bu vəziyyətdən özlərini qurtara bilmək üçün insanlara yol göstərmişdir. Quranda şeytandan bir vəsvəsə gəldiyində insanlara Allaha sığınmaları və düşünmələri bildirilir:

**(Allahdan) Qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (əvvəlcə) yaxşı şəkildə düşünərlər (Allahı yada salarlar) və sonra dərhal gerçəyi görərlər. (Şeytanın) qardaşları isə onları azğınlığa apararlar, sonra da onlardan əl çəkməzlər. (Əraf surəsi, 201-202)**

Ayələrdə də xəbər verildiyi kimi düşünən insan haqqı görər, düşünməyən insan isə şeytan onu hara aparca o da oraya gedər.

Əhəmiyyətli olan bu tərz düşüncələrin insana heç bir fayda vermədiyini, əksinə həqiqətləri, əhəmiyyətli hadisələri düşünmələrinə mane olduğunu bilmək və zehini bunlardan təmizləməkdir. İnsan ancaq boş düşüncələrdən təmizlənmiş bir zehinlə gərəyi kimi düşünə bilər. Bu şəkildə Allahın Quranda əmr etdiyi kimi, "boş şeylərdən üz çevirmiş" olar.

# DÜŞÜNMƏYƏ MANE OLAN SƏBƏBLƏR HANSILARDIR?

İnsanların düşünməsinə mane olan bir çox səbəb vardır. Bunlar insanı düşünməkdən, həqiqətləri görməkdən yayındıra bilər. Buna görə də hər insanın özünə mənfi istiqamətdə təsir edən səbəbləri müəyyənləşdirməsi və bunların təsirindən xilas olması vacibdir. Əks təqdirdə dünya həyatının əsl üzünü görə bilməz. Bu isə axirətdə ona çox böyük bir itki gətirər.

Allah Quranda, səthi düşünmə vərdişinə sahib insanların vəziyyətini belə bildirir:

**Onlar dünya həyatının (ancaq) görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər. Məgər onlar özləri barəsində düşünmürlərmi?. Allah göyləri, yeri və onların arasındakıları ancaq bir gerçəklik kimi və müəyyən müddətə qədər yaratmışdır? Lakin, insanların çoxu Rəbbi ilə qarşılaşacağını inkar edir. (Rum surəsi, 7-8)**

Bu hissədə düşünməyi əngəlləyən səbəblərdən bəziləri üzərində dayanacağıq.

**Çoxluğa tabe olmağın gətirdiyi zehni keylik**

İnsanları ən çox yanıldan mövzulardan biri "çoxluğun" etdiklərinin doğru olduğuna inanmalarıdır. Bir insan doğruları düşünərək tapmaq əvəzinə həmişə ətrafındakı insanların öyrətdiklərini qəbul etməyə yönələr. Çox vaxt özünə ilk öncə qəribə gələn şeyləri digər insanların normal qarşıladıqlarını görər və bir müddət sonra özü də bunları mənimsəməyə başlayar.

Məsələn, ətrafındakı insanların çox böyük bir qismi bir gün öləcəyini düşünməz. Hətta ölümü xatırlamamaq üçün bir adamın belə bu mövzu barəsində danışmasına izin verməzlər. Bunu görən insan da ətrafına baxar; "hər kəs belə olduğuna görə mən də belə hərəkət etsəm bir problem olmaz" deyər və ölümü heç ağlına gətirmədən yaşamağa başlayar. Halbuki ətrafındakı hər insan Allah qorxusuyla hərəkət etsə və axirət həyatı üçün ciddi bir səy göstərsə, böyük ehtimal ki, bu adam da öz rəftarını dəyişdirəcək.

Bundan əlavə hər gün televiziyalarda, jurnallarda yüzlərlə fəlakət, haqsızlıq, ədalətsizlik, zülm, intihar, cinayət, oğurluq, fırıldaqçılıq hallarına aid xəbərlər oxunur, köməyə möhtac olan minlərlə insandan bəhs edilir. Ancaq bir çox insan bu xəbərləri oxuyub qəzetin səhifələrini könül rahatlığı ilə çevirir. Ümumiyyətlə insanlar bu tərz xəbərlərin niyə bu qədər çox olduğu, bunların qarşısını almaq üçün nələr edilməsi, nə kimi tədbirlər görülməsinin lazım olduğu, hətta özlərinin bu mövzuda nələr edə biləcəklərini düşünməzlər. Çünki ətraflarındakı digər insanların böyük bir

hissəsi də bunları düşünməz. Çox insan "dünyanı qurtarmaq mənəmi qaldı?" məntiqi çərçivəsində məsuliyyəti başqalarının boynuna atar.

**Düşünmə tənbəlliyi**

Tənbəllik insanların böyük bir hissəsinin düşünməsinə mane olan bir səbəbdir.

Düşünmə tənbəlliyindən ötrü insanlar hər şeyi həmişə gördükləri və alışdıqları şəkildə edərlər. Gündəlik həyatdan bir nümunə vermək lazımdırsa, buna evdar qadınların təmizlik işlərini daim analarından gördükləri şəkildə görmələrini göstərə bilərik. Ümumiyyətlə "nə etsəm daha əlverişli və ya daha təmiz olar" deyə düşünməz və yeni yollar axtarmazlar. Eynilə kişilər də bir şeyi təmir etmək və ya hər hansı bir şey etmək lazım gəldikdə, uşaqlıqlarından etibarən özlərinə öyrədilən üsulları istifadə edərlər. Yeni bir üsulu, daha əlverişli və ağıllı ola biləcək bir şeyi tətbiq etməyə çalışmazlar. Bu insanların danışıq üslubu da həmişə eynidir. Məsələn, bir mühasibin danışıq üslubu, ömrü boyu gördüyü mühasiblərin eynisidir. Həkimlərin, bank işçilərinin, satıcıların da həmçinin... Bir sözlə, hər təbəqədən olan insanın özünə məxsus bir danışıq üslubu vardır. Çünki bu insanlar düşünərək ən uyğun, ən gözəl, ən xeyirli olanı axtarıb tapmazlar. Həmişə gördüklərini təqlid edərlər.

Problemlərə gətirilən həllər də düşünmə tənbəlliyini əks etdirəcək şəkildədir. Məsələn, bir bina administratoru binanın tullantı probleminə əvvəlki administratorların gətirdikləri həllin eynisini gətirər və ya bir bələdiyyə başçısı yol problemini daha əvvəlki bələdiyyə başçılarının nə etdiklərinə baxaraq həll etməyə çalışar. Düşünmədikləri üçün bir çox problemə yeni həllər gətirə bilməz.

Əlbəttə ki, burada verilən nümunələr insanların gündəlik həyatlarında zərərini gördükləri mövzulardır. Ancaq bunlardan daha çox əhəmiyyətli mövzular vardır ki, insanların tənbəllik edərək bu mövzular barəsində düşünməmələri onları böyük və əbədi bir ziyana uğradar. İnsanın dünyada yaranma məqsədini düşünməməsi, ölümün qaçılmaz bir həqiqət olduğunu, ölümdən sonra isə mütləq haqq-hesab günüylə qarşılaşacağını görməzlikdən gəlməsi bu ziyanının qaynağıdır. Allah Quranda insanları bu mühüm həqiqətlər üzərində düşünməyə dəvət etmişdir. Bu ayələrdən bəzilərində belə buyurulur:

**Məhz bunlar özlərini ziyana uğradanlardır və yalandan uydurduqları (uydurma məbudlar) da özlərindən uzaqlaşıb qeyb olmuşdur. Şübhə yoxdur ki, axirətdə ən çox ziyana uğrayanlar da onlardır. Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və 'Rəbbinə ürəkləri razı qalmış olaraq bağlananlar', Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Bu iki zümrənin halı korla karın, görənlə eşidənin halına bənzəyir. Onların halı eyni ola bilərmi? Məgər öyüd alıb düşünməyəcəksiniz? (Hud Surəsi, 21-24)**

**Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? (Nəhl surəsi, 17)**

**"Çox düşünmək yaxşı deyil" şəklindəki səhv təlqin**

Cəmiyyətdə dərin düşünmənin elə də yaxşı bir şey olmadığına dair geniş yayılmış səhv bir inanc vardır. Hətta insanlardan bəziləri bir-birlərini "çox düşünmə havalanarsan" deyərək xəbərdar edərlər. Əlbəttə ki, bu dindən uzaq yaşayan insanların uydurduqları batil bir düşüncədən başqa bir şey deyil. İnsanın düşünməkdən çəkinməməlidir, mənfi düşünmək, xülyalara və vəsvəsələrə qapılmaqdır.

Allah və axirət inancı güclü olmayan, Quranı yaxşı bilməyən insanlar yaxşılıq və gözəllik istiqamətində deyil, mənfi istiqamətdə düşündükləri üçün, düşünmələri nəticəsində həqiqi mənada elə də faydalı nəticələr əldə olunmaz. Məsələn, dünya həyatının müvəqqəti olduğunu, bir gün öləcəklərini düşünərlər, ancaq bundan ötrü güclü pessimizmə qapılarlar. Çünki, vicdanları onlara dünyada Allahın əmrlərinə tabe olmadan keçirdikləri bir həyatın, axirətdə pis bir aqibət hazırladığını xəbər verir. Bir qismi də öldükləri vaxt yox olacaqları kimi batil bir düşüncəyə inandığı üçün pessimizmə qapılar.

Halbuki Allaha və axirət gününə inanan, ağıl sahibi bir insan dünya həyatının müvəqqəti olduğunu düşündüyündə tam fərqli çox gözəl nəticələr əldə edər. Hər şeydən əvvəl dünyanın müvəqqəti olduğunu anlaması, axirətdəki əsl və əbədi həyatı üçün böyük bir şövqlə səy göstərməyə başlamasına səbəb olar. Buradakı həyatın sonunda bitəcəyini bildiyi üçün dünyəvi mənfəətlərin və hesabların ehtirasına özünü salmaz. Olduqca təvəkküllü olar. Bu müvəqqəti həyatda baş verən heç bir hadisə onu kədərləndirməz. Daim sonsuz və gözəl bir həyata qovuşmağın ümidini daşıyar. Dünyadakı nemətlərdən və gözəlliklərdən də xeyli zövq alar. Çünki, Allah dünyanı insanları sınamaq üçün əskik və qüsurlu yaratmışdır. Bu əskik və qüsurlu dünyada belə insanın xoşuna gələn çox sayda gözəllik varsa, cənnətdəki gözəlliklər təsəvvür edilə bilinməyəcək qədər möhtəşəmdir deyə düşünər. Hər gördüyü gözəlliyin axirətdə əslini görməyini ümid edər və bunların hamısını da çox dərindən düşünərək qavrayar.

Bu səbəbdən də bir insanın "sonunda həqiqətləri görərək ya bədbinliyə qapılsam" deyə narahatlıq keçirməsi və buna görə də düşünməkdən qaçması onun üçün böyük bir zərər olar. Çünki, Allaha olan imanı sayəsində daim ümid içərisində olan və müsbət düşünən bir insan üçün bədbinliyə səbəb ola biləcək heç bir hadisə yoxdur.

**Düşünmənin gətirəcəyi məsuliyyətlərdən qaçmaq**

Çox adam düşünməkdən, mövzular üzərində zehnini işlətməkdən uzaq duraraq bir çox məsuliyyətdən qaça biləcəyini düşünər. Hətta dünyada bu üsulu tətbiq edərək bir çox mövzuda məsuliyyət sahibi olmamağı bacara bilər. Ancaq insanların ən böyük səhvlərindən biri, düşünməyərək Rəbbimizə qarşı olan məsuliyyətlərindən qaça biləcəklərini zənn etmələridir. İnsanların ölümü və ölümdən sonrakı həyatı düşünməmələrinin əsl səbəbi də budur. Çünki, bir insan bir gün öləcəyini düşünsə və ölümdən sonra əbədi bir həyat olduğunu xatırlasa, var gücüylə ölümdən sonrakı həyatı üçün səy göstərər. Ancaq axirətin varlığını düşünmədiyi təqdirdə belə bir məsuliyyətdən xilas olacağını zənn edərək özünü aldadar. Amma bu böyük bir aldanışdır və insan bu dünyada düşünərək doğruya çatmazsa, ölümlə birlikdə özü üçün heç bir qaçış yeri olmadığını dərk edəcəkdir. Bu həqiqət ayələrdə belə xəbər verilir:

**Ölüm bihuşluğu həqiqətən gələcəkdir. Ey insan! Bu sənin uzaq qaçdığın şeydir. Sur üfürüləcəkdir. Bu, vəd olunmuş təhdid günüdür. (Qaf surəsi, 19-20)**

**Gündəlik həyatın gedişinə qapılaraq düşünməmələri**

İnsanların böyük bir hissəsi bütün ömrünü "qaçaqaç" içində keçirər. Müəyyən yaşa gəldikləri andan etibarən işləməli, özlərini və ailələrini dolandırmalıdırlar. Bunu "həyat mübarizəsi" deyirlər və bu mübarizədə ora bura qaçmaqdan ötrü başqa işlərə vaxt qalmadığından şikayətlənərlər. Guya "vaxtsızlıq" içində düşünmək, bir cür vaxt ayıra bilmədikləri mövzulardandır. Beləcə gündəlik həyatlarının onları çəkib apardığı yerə doğru gedərlər. İnsanların böyük bir hissəsi bu həyat tərzi içərisində ətraflarında olub bitən hadisələrə qarşı laqeyd münasibət göstərməyə başlayar.

Halbuki insanın məqsədi bu dünyada oradan bura, buradan ora qaçıb, vaxtını tükətmək olmamalıdır. Əsas məsələ dünyanın həqiqi üzünü görə bilmək və buna uyğun bir həyat tərzini mənimsəməkdir. Heç bir insanın tək məqsədi, pul qazanmaq, işə getmək, universitetdə oxumaq, ev sahibi olmaq deyil. Əlbəttə ki, insan həyatı boyu bunları etməlidir, ancaq bütün bunları edərkən ağlından çıxarmaması lazım olan bir mövzu vardır: Hər insanın dünyada olma məqsədi Allaha qul olmaq, Allahın razılığını, rəhmətini və cənnətini qazanmaq üçün çalışmaqdır. Bu məqsəd xaricindəki bütün fəaliyyətlər və ya işlər yalnız və yalnız insanın həqiqi məqsədinə çatmasına köməkçi bir "vasitə" ola bilər. Vasitəni məqsəd etmək isə şeytanın insanları içinə saldığı çox böyük bir yanılmadır.

Ancaq düşünmədən yaşayan bir insan bu vasitələri asanlıqla özünə məqsəd qəbul edə bilər. Bu mövzuda gündəlik həyatdan belə bir nümunə verə bilərik: İnsanın çalışıb cəmiyyətə faydalı şeylər hazırlaması, şübhəsiz ki, gözəl bir hərəkətdir. Allaha iman edən bir insan belə bir işi şövqlə icra edər və qarşılığını da həm dünyada, həm də axirətdə Allahdan gözləyər. Amma başqa bir insan eyni hərəkəti Allahı unudaraq, yalnız bu dünyaya istiqamətli bəzi mənfəətlər üçün, insanların təqdirini qazanacağı bir mövqe əldə etmək üçün edirsə, məhz bu məqamda yanılmışdır və axirətdə həqiqətlərlə qarşılaşdığında bundan ötrü tərif edilə bilməz bir peşmançılıq keçirəcəkdir. Allah dünya həyatına aldananlar barəsində bir ayəsində belə buyurur:

**Onlar da sizdən əvvəl yaşamış (münafiqlər və kafirlər) kimidirlər. Onlar sizdən qüvvədə daha üstün, mal-dövlət və övlad baxımından daha çox idilər. Onlar öz paylarından zövq aldılar. Sizdən əvvəlkilər öz paylarından zövq aldıqları kimi, siz də öz payınızdan zövq aldınız. Onlar daldıqları kimi, siz də daldınız. Onların əməlləri dünyada da, axirətdə də heçə getmişdir. Məhz onlar ziyana uğrayanlardır. (Tövbə surəsi, 69)**

### Hər şeyə "vərdiş gözü"ylə baxmaq və bu səbəbdən də düşünməyə ehtiyac duymamaq

İnsanlar bəzi şeylərlə ilk dəfə qarşılaşdıqlarında, onlardakı fövqəladəliyi dərk edə bilərlər və bu onların düşünmələrinə, gördükləri şeyi təhlil edib araşdırmalarına səbəb ola bilər. Ancaq bir müddət sonra bu şeyə qarşı bir vərdiş meydana gələr və artıq bundan təsirlənməməyə başlayarlar. Xüsusilə də hər gün qarşılaşdıqları bir varlıq və ya hadisə, artıq onlar üçün "adi" bir şey halına gələr.

Məsələn, həkimliyə namizəd olan bəzi kəslər ilk dəfə ölü bir insanın bədənini gördükləri vaxt bundan son dərəcə təsirlənərlər və ya ilk dəfə bir xəstələri öldüyündə bu onları uzun müddət düşündürər. Bəlkə bir neçə dəqiqə əvvəl həyat dolu, gülən, planları olan, danışan, zövq alan bir insanın, gözləri parlaq, canlı olduğu halda birdən-birə cansız, sanki bir əşyaya bənzəyən bədəni qarşılarına çıxar. İlk dəfə yarmaları üçün önlərinə bir cəsəd gəldikdə bu cəsəddə gördükləri hər şeyi düşünərlər. Məsələn, bu bədənin böyük bir sürətlə çürüməsi, içindən dözülməz bir qoxunun çıxması, yaşayarkən gözə xoş gələn saçların toxunmağa belə tab gətirilməyəcək bir hala gəlməsi həmişə üzərində düşündükləri mövzulardır. Bunlardan sonra da bunu düşünərlər: Hər insanın bədən quruluşu tamamilə eynidir və hər kəsin bədəni mütləq eyni aqibətə məruz qalacaq, yəni özləri də bir gün bu hala düşəcəklər.

Ancaq bir neçə cəsəd gördükdən və ya bir neçə xəstəsi öz həyatını itirdikdən sonra bu kəslərdə vərdiş yaranmağa başlaya bilər. Artıq gördükləri cəsədlərə, hətta xəstələrə belə bir əşyaymış kimi davranmağa başlayarlar.

Əlbəttə ki, bu vəziyyət yalnız həkimlərə aid deyil. İnsanların böyük bir hissəsi üçün həyatlarının bir çox mərhələsində eyni vəziyyət hakimdir. Məsələn, çətin şərtlərdə yaşayan bir insana, birdən-birə rahat bir həyat tərzi təqdim edildikdə, gördüyü və sahib olduğu hər şeyin özü üçün bir nemət olduğunu anlayar. Yatdığı yatağın daha rahat olması, evindən baxıldıqda gözəl bir mənzərənin görünməsi, ürəyinin istədiyi şeyi alıb yeyə bilməsi, qışda evini istədiyi kimi isidə bilməsi, bir yerdən başqa bir yerə avtomobili ilə rahatlıqla gedə bilməsi və daha bir çox şey bu adam üçün bir nemətdir. Əvvəlki vəziyyəti ağlına gəldikcə, bunların hər birinin sevincini yaşayar. Ancaq doğulduğu andan etibarən bu imkanlara sahib bir insan bunların dəyərini o qədər də düşünməyə bilər. Bu gözəllikləri təqdir etməsi (düşünmədiyi müddətcə) elə də mümkün olmaz.

Düşünən bir insanın isə nə doğulduğu andan etibarən bu nemətlərə sahib olması, nə də bunları sonradan əldə etməsi bir şey dəyişdirməz. Çünki, heç bir zaman sahib olduğu şeylərə vərdiş gözüylə baxmaz. Hər birini özü üçün Allahın yaratdığını, istəsə bunları özündən geri ala biləcəyini bilir. Məsələn, möminlər özlərini daşıyacaq minik vasitələrinə mindiklərində belə dua edərlər:

**..."Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı... (Zuxruf surəsi, 13)**

**Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq". (Zuxruf surəsi, 14)**

Başqa bir ayədə də möminlərin, bağçalarına girdiklərində Allahı təsbeh edərək **"...maşallah! Qüvvət yalnız Allaha məxsusdur!..." (Kəhf surəsi, 39)** dedikləri bildirilir. Bu, onların hər dəfə öz bağçalarına girdiklərində bu bağçanı yaradanın və onu ayaqda saxlayanın Allah olduğunu düşündüklərinin bir göstəricisidir. Düşünməyən bir insan isə, ilk dəfə gözəl bir bağça gördüyündə buna valeh ola bilər, ancaq daha sonra bura onun üçün getdikcə adi bir yer halına gəlməyə başlayar. İçindəki gözəlliklərə olan heyranlığı yox olar. Bəzi insanlar isə heç düşünmədikləri üçün, hətta ən başından bu nemətlərin əhəmiyyətini anlaya bilməzlər. Özlərinə verilən nemətləri "alışılmış", "olması lazım olan" şeylər kimi qiymətləndirməklə yanılarlar. Buna görə də bunların gözəlliklərindən zövq ala bilməzlər.

**Nəticə: İnsanın düşünməsinə mane olan bütün səbəblərin aradan qaldırması vacibdir**

Daha əvvəl ifadə etdiyimiz kimi, insanların böyük bir hissəsinin düşünməməsi və həqiqətlərdən xəbərsiz şəkildə yaşaması insanın düşünməməsi üçün əsaslı bir bəhanə ola bilməz. Çünki, hər insan öz-özlüyündə müstəqil bir varlıqdır və Allaha qarşı tək başına məsuldur. Unutmamaq lazımdır ki, Allah insanları dünya həyatında sınayır. Digər şəxslərin laqeyd, düşünməyən, ağılsız, həqiqətləri görə bilməyən insanlar olması da çox vaxt bu imtahanın bir hissəsidir və səmimi surətdə düşünən bir insan, "insanların böyük bir hissəsi düşünmür və bunlardan xəbərsizdir, niyə təkcə mən düşünüm" deməz. Hətta insanların böyük bir hissəsinin içində olduğu qəfləti düşünərək ibrət götürər və onlardan biri olmaqdan Allaha sığınar. Digər insanların içində olduqları vəziyyətin özü üçün bir bəhanə ola bilməyəcəyi aydındır. Çünki, Allah Quranda bir çox ayəsiylə insanların çoxunun qəflət içində olduqlarını və iman etmədiklərini bildirir. Bu ayələrdən bəzilərində belə buyurulur:

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. (Yusif surəsi, 103)**

**Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu buna inanmır. (Rad surəsi, 1)**

**Onlar Allaha möhkəm and içdilər ki: "Allah ölən bir kəsi diriltməyəcəkdir!" Xeyr! Allahın ölüləri diriltməsi Onun doğru vədinə görə olacaq, lakin insanların çoxu bunu bilmirlər. (Nəhl surəsi, 38)**

**Andolsun Biz bunu öyüd alıb düşünsünlər deyə onlara müxtəlif cür izah etdik. Lakin insanların çoxu nankorluq edib inadkarlıq etdilər. (Furqan surəsi, 50)**

Allah başqa ayələrində insanların əksəriyyətinə tabe olaraq yoldan azan, yaradılış məqsədini düşünməyərək Allahın əmrlərini yerinə yetirməyən insanların yaşadıqları aqibəti də xəbər vermişdir:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". Onlara deyiləcək: "Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz". (Fatir surəsi, 37)**

Bu səbəblə də hər insanın düşünməsinə mane olan səbəbləri aradan qaldıraraq, səmimi və könüllü surətdə Allahın yaratdığı hər hadisə və hər varlıq üzərində düşünməsi, düşündüklərindən özü üçün bir öyüd və ibrət alması lazımdır.

Bundan sonrakı hissədə bir insanın gündəlik həyatı içində qarşılaşa biləcəyi bəzi hadisələr və varlıqlar haqqında nələri düşünə biləcəyindən bəhs ediləcək. Məqsədimiz burada bəhs edilən mövzuların bu kitabı oxuyanlara rəhbər olması və bundan sonrakı həyatlarını "düşünən və düşündüklərindən öyüd və ibrət alan" kəslər olaraq keçirmələridir.

# ÜZƏRİNDƏ DÜŞÜNÜLMƏSİ LAZIM OLAN ŞEYLƏR

Kitabın əvvəlindən etibarən düşünmənin əhəmiyyətindən, insana qazandırdığı şeylərdən, insanı digər canlılardan fərqləndirən çox əhəmiyyətli bir xüsusiyyət olduğundan bəhs etdik. Həmçinin düşünməyə mane olan səbəbləri də qeyd etdik. Şübhəsiz ki, bütün bunlardakı məqsəd insanları düşünməyə təşviq edərək, yaradılış məqsədlərini görmə, Allahın sonsuz elmini və qüdrətini təqdir edə bilmələrinəköməkçi olmaq idi.

Növbəti səhifələrdə isə Allaha iman edən bir insanın bir gün ərzində yaşadığı hadisələr qarşısında nələri düşünməsinin lazım olduğunu, gördüyü hadisələrdən necə ibrət almasının, qarşılaşdığı hər şeydə Rəbbimizin sənətini və elmini görərək necə Allaha şükür etməsinin və ona yaxınlaşmasının lazım olduğunu izah edəcəyik.

Əlbəttə ki, burada bəhs ediləcək şeylər bir insanın düşünmə potensialının çox kiçik bir hissəsini təşkil edir. İnsan yaşadığı müddətcə daim düşünmə qabiliyyətinə malikdir və insanın düşüncə üfüqü elə genişdir ki, bunlara bir məhdudiyyət gətirmək mümkün deyil. Burada izah ediləcək şeylərin məqsədi, yalnızca düşünmə qabiliyyətindən lazım olduğu kimi istifadə etməyən kəslərə bir yol açmaqdır.

Unutmamaq lazımdır ki, ancaq düşünən insanlar idrak edə bilər və digər canlılardan fərqli bir mövqeyə çata bilərlər. Ətrafındakı möcüzəvi hadisələri görə bilməyən, görüb də dərk etməyən insanların vəziyyətini Allah ayələrində belə xəbər vermişdir:

**Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey eşitməyib (eşitdiyi və ya bağırdığı şeyin mənasını bilməyən və daima) qışqıranın (bir heyvannın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar. (Bəqərə surəsi, 171)**

**...Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.. (Əraf surəsi, 179)**

**Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar. (Furqan surəsi, 44)**

Allahın ayələrini, yaratdığı canlılardakı və hadisələrdəki möcüzələri görə bilən, bu səbəbdən də dərk etmə qabiliyyətinə sahib insanlar isə ancaq düşünən insanlardır və bu insanlar gördükləri kiçik-böyük hər şeydən bir nəticə çıxara bilərlər.

**Səhər oyandığında...**

İnsanın düşünməyə başlaması üçün xüsusi bir mühitin meydana gəlməsinə ehtiyac yoxdur. Səhər oyandığı andan etibarən düşünməsi üçün özünə bir çox imkan verilir.

Səhər oyanan insanın qarşısında uzun bir gün vardır. Ümumiyyətlə yorğun və ya yuxusuz deyil, hər şeyə yenidən başlamağa hazırdır. Bunu düşünən insanın ağlına Allahın bir ayəsi gəlir:

**Sizin üçün gecəni örtük, yuxunu rahatlıq, gündüzü də canlanma vaxtı edən Odur. (Furqan surəsi, 47)**

Özünə gəlməsi, tam olaraq ayılması üçün üzünü yuması, duş qəbul etməsi kifayət edəcəkdir. Artıq insan özü üçün faydalı bir çox şeyi düşünə biləcək bir mövqedədir. Naharda nə yeyəcəyindən və ya evdən saat neçədə çıxması lazım olduğundan daha əhəmiyyətli mövzular vardır və əvvəlcə bunları düşünməlidir.

Əvvəlcə səhər oyana bilməsi böyük bir möcüzədir. Şüurunu tamamilə itirməsinə baxmayaraq, səhər yenə əvvəlki şüur və şəxsiyyətinə sahib olmuşdur. Qəlbi döyünür, nəfəs ala bilir, danışa və görə bilir. Halbuki gecə yuxuya gedərkən bu nemətlərin səhər yenidən özünə veriləcəyinə dair heç bir zəmanət yoxdur. Üstəlik gecə boyunca başına hər hansı bir fəlakət də gəlməmişdir. Məsələn, yaşadığı mənzildə bir qonşusunun fikirli olması qaz sızıntısına səbəb ola bilər və gecə böyük bir partlayışın səsindən oyana bilər. Yaşadığı yerdə təbii bir fəlakət baş verə bilər, bəlkə həyatını itirə bilər.

Bədənində başqa problemlər yarana bilər, məsələn, güclü bir böyrək sancısı, baş ağrısı ilə oyana bilər. Amma bunların heç biri olmamış və sapsağlam olaraq oyanmışdır. Bütün bunları düşünəndə Allahın öz üzərindəki bu geniş rəhməti və qoruması üçün Ona şükr edər.

Yeni bir günə sağlam olaraq başlamaq, insanın axirət həyatı üçün daha çox xeyir qazanmasından ötrü Allahın ona bir fürsət daha verməsi deməkdir.

Onda ediləcək ən gözəl hərəkət, həmin günü Allah rizasına uyğun keçirməkdir. İnsan hər şeydən əvvəl bunun planlarını qurmalıdır, başını məşğul edən düşüncələr bunlar olmalıdır. Allahı razı salmağın ən əhəmiyyətli yollarından biri isə bu mövzuda Ondan kömək istəməkdir. Hz. Süleymanın səmimi duası bu mövzuda möminlərə bir nümunədir:

**“Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!”** (Nəml surəsi, 19)

**İnsanın acizliyinin onu düşündürməyə sövq etməsi**

İnsan səhər yataqdan qalxan kimi aciz bir varlıq olduğunu dərk edərək düşünməyə başlayar. Hər səhər mütləq üzünü yumalı, dişlərini fırçalamalıdır. Bunları görən insan digər acizliklərini də düşünməyə başlayar. Məsələn, hər gün duş qəbul etmək məcburiyyətində olması, napnazik dərisinin altının baxıla bilməyəcək qədər pis vəziyyətdə olması, bədəninin infeksiyaya olduqca açıq olması, yuxusuzluğa, aclığa və susuzluğa dayana bilməməsi acizliyinin əlamətlərindəndir.

Səhər güzgüyə baxan bir insanın əgər yaşı artmışdırsa onda ağlına daha başqa düşüncələr də gələr. Ömrünün orta hesabla ilk 20 ilindən sonra ilk yaşlanma əlamətləri başlamışdır. 30 yaşına yaxınlaşdıqda gözlərinin altı, ağız kənarları qırışmağa başlamış, dərisinin canlılığı yox olmuş, bədəninin böyük bir hissəsində dəyişikliklər müşahidə olunmağa başlamışdır. Yaşı daha da irəlilədikcə saçları ağarmış, hətta əlləri belə yaşlanmışdır.

Bunları düşünən bir insan üçün yaşlılıq dünya həyatının müvəqqəti olduğunu göstərən, insanın dünyaya həvəslə bağlanmasına mane olan ən təsirli hadisələrdən biridir. Yaşlanmağa başlayan adam artıq dünya həyatının sona çatmasına geri sayım başladığını anlayar. Əslində yaşlanan və geri sayıma başlayan insanın bədənidir. Bədən gün keçdikcə çürüyər, ancaq insanın ruhunda bir yaşlanma olmaz. İnsanların çoxu gəncliklərində güclü şəkildə gözəl və ya çirkin olmalarının təsiri altında qalarlar. Ümumiyyətlə gözəl olan öyünər, çirkin olan isə məzlum və bədbəxt olar. Yaşlılıq isə bədənin gözəlliyinin və ya çirkinliyinin nə qədər müvəqqəti olduğunu, Allah qatında yeganə əhəmiyyət kəsb edən şeyin və insanın tək qazancının Allaha olan bağlılığı ilə göstərdiyi gözəl əxlaq olduğunu göstərən əhəmiyyətli bir ibrətdir.

İnsan hər dəfə bu acizlikləri ilə qarşılaşdığında, hər cür nöqsandan uzaq olan, tək qüsursuz varlığın Allah olduğunu düşünər və Allahın ucalığını zikr edər. Allah insanın sahib olduğu hər acizliyi bir hikmətlə yaratmışdır. İnsanların dünya həyatına bağlanmamaları, dünya həyatında sahib olduqları ilə azmamaları və öyünməmələri bu hikmətlərdən bəziləridir. Bunları düşünərək qavraya bilən adam axirətdə Allahın özünü bütün bu nöqsanlardan təmizlənmiş halda yaratmasını istəyər.

Sahib olduğu acizliklər ağlına çox əhəmiyyətli bir düşüncə daha gətirər: Qara torpaqdan çıxan bir çiçəyin tərtəmiz olduğu halda, insanın özünə baxmadığı təqdirdə bədənində yaranan qoxunun dözülməz olması, xüsusilə təkəbbürlü və özünü bəyənmiş insanların üzərində düşünərək ibrət almaları lazım olan bir vəziyyətdir.

### İnsanın bədənindəki bəzi xüsusiyyətlərin ona düşündürdüyü şeylər

İnsan səhər güzgüyə baxmağa davam etdiyi anda ağlına heç düşünmədiyi şeylər də gələ bilər. Məsələn, insanın kirpikləri, qaşları, sümükləri, dişləri müəyyən bir ölçüyə çatdıqda uzanmaları dayanar. Ancaq saçlarının uzanması dayanmaz. Yəni uzanması zərərli ola biləcək, pis bir görünüşün yaranmasına səbəb olacaq hissələrin uzanması dayandığı halda, uzanması estetik baxımdan gözəl ola biləcək olan saçlar uzanmağa davam edər. Bununla yanaşı sümüklərin uzanma prosesində də tam bir uyğunluq və ölçü vardır. Məsələn, insanın qol sümükləri daha çox uzanıb, gövdəsi qısa qalmaz. Hər biri nə qədər uzanması lazım olduğunu bilirmiş kimi tam vaxtında dayanar.

Əlbəttə ki, burada qeyd olunanlar bədəndə meydana gələn bəzi fiziki faktorların nəticəsində meydana gələr. Ancaq düşünən insanın ağlına bu da gəlir: Bu kimyəvi reaksiyaların reallaşması necə təmin edilir? Lazım olan hər şeyin lazımi qədər böyüməsini təmin edən hormonları, fermentləri bədənin içinə yerləşdirən kimdir? və bunların miqdarına, ifraz olunma zamanlarına kim nəzarət edir?

Şübhəsiz ki, bütün bunların təsadüflər nəticəsində meydana gəldiyini iddia etmək qeyri-mümkündür. İnsanı meydana gətirən hüceyrələrin, hüceyrələri meydana gətirən şüursuz atomların belə qərarlar verə bilmələri mümkün deyil. Bunların hər birinin insanı ən gözəl surətdə yaradan Allahın sənəti olduğu açıq-aşkar ortadadır.

### Yolda gedərkən...

İnsanların bir çoxu səhər qalxıb hazırlandıqdan sonra iş yerinə, məktəbə getmək və ya çöldəki bir işini həll etmək məqsədiylə yola çıxarlar. Bir mömin üçün bu səfər Allahın razı qalacağı yaxşı işlər görməyin bir başlanğıcıdır. İnsan evindən ayrılıb çölə çıxar-çıxmaz ağlına düşünməsi lazım olan bir çox mövzu gələr. Ətrafda böyük-kiçik minlərlə insan, avtomobillər, ağaclar sayıla bilməyəcək qədər çox incəlik vardır. Bu məqamda bir möminin dünyagörüşü çox aydındır. O gördüyü şeylərdən mümkün qədər faydalanar. Hadisələrin arxasındakı səbəbləri düşünər. Çünki, Allah onun qarşısında gördüyü bu mənzərədən xəbərdardır və Onun diləməsi nəticəsində meydana gəlmişdir. Elə isə mütləq bir səbəbi vardır. Allah, onu çölə çıxarıb qarşısına bu görüntüləri çıxardığına görə bunlar üzərində görülməsi və düşünülməsi lazım olan şeylər vardır. Səhər oyandığı andan etibarən özünə dünyada əcr (savab) qazana biləcəyi bir gün daha verdiyi üçün Allaha şükr etmişdir və indi də bu mükafatları qazana biləcəyi bir səfərə başlamışdır. Bunu dərk edən bir insan, hər şeyi yaradan Allahın **"gündüzü bir dolanışıq-vaxtı etdik" (Nəbə surəsi, 11)** ayəsini düşünər. Bu ayə əsasında gününü digər insanlara faydalı olacaq, Allahın məmnun olacağı işlər görəcək şəkildə keçirməyi planlaşdırar.

Ağlında bu planlarla avtomobilinə və ya başqa bir nəqliyyat vasitəsinə çatdığında, yenə Rəbbimizə şükr edər. Çünki gedəcəyi yer nə qədər uzaq olursa

olsun, oraya çatma imkanı vardır. Allah asanlıq olsun deyə insanlar üçün bir çox nəqliyyat vasitəsi yaratmışdır. Xüsusilə də hal-hazırda inkişaf edən texnologiya sayəsində bu imkanlar xeyli artmışdır; avtomobillər, qatarlar, təyyarələr, gəmilər, vertolyotlar, avtobuslar... Bunları düşünən adamın ağlına çox əhəmiyyətli bir mövzu daha gəlir: Texnologiyanı da insanların xidmətinə verən Allahdır.

Elm adamları hər keçən gün yeni kəşflər edir, həyatımızı asanlaşdıracaq yeniliklər icad edirlər və bunların hamısını Allahın dünyada yaratdığı imkanlar sayəsində həyata keçirirlər. Məhz düşünən insan bunları öz xidmətinə verdiyi üçün Rəbbimizə şükr edərək səfərini davam etdirər.

Bu düşüncələrlə gedəcəyi yerə doğru hərəkət edərkən, küçə arasında gördüyü bir zibil yığını, pis qoxu, qaranlıq, dar, nəm yerlər də insanın ağlına müxtəlif mövzular gətirər.

Allah dünyada həm cənnəti, həm də cəhənnəmi təsəvvür edə biləcəyimiz və ya müqayisə yoluyla necə ola biləcəklərini ehtimal edə biləcəyimiz məkanlar və görüntülər yaratmışdır. Zibil yığınları, pis qoxular, dar, nəm, pis və qaranlıq yerlər insanın canını sıxar. İnsan belə mühitlərdə əsla olmaq istəməz. Bunların hamısı cəhənnəmi xatırladan xüsusiyyətlərdir və bu görüntülərlə qarşılaşan adamın ağlına cəhənnəmlə əlaqəli ayələr gəlir. Allah Quranda cəhənnəmdəki pis görüntüləri, qaranlığı, pis şeyləri bir çox ayəsi ilə xəbər vermişdir:

**Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri! Onlar hüceyrələrə qədər nüfuz edən qovurucu istilik və qaynar su içində, qapqara duman kölgəsində olacaqlar. Bu duman nə sərin, nə də xoşagələndir. (Vaqiə surəsi, 41-44)**

**Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər. Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!". (Furqan surəsi, 13-14)**

Quranın bu ayələrini xatırlayan adam, dərhal Allaha özünü cəhənnəm əzabından qoruması üçün dua edər, etdiyi səhvlərdən ötrü bağışlanma diləyər.

Bu cür düşünməyə başlamayan insan isə gününü deyinərək, hər hadisədə bir günahkar tapmağa çalışaraq keçirəcəkdir. Zibili atan şəxslər və onu gec yığan bələdiyyə ağlında ilişib qalacaq, müdirin haqsız yerə özünü danlaması və daha bir çox mövzu ilə bütün gün ağlını məşğul edəcək. Bu boş düşüncələr isə axirətdə özünə heç bir fayda verməyəcək. Bəlkə insan "görəsən bir çox işi bir kənara mı qoyum?"deyə düşünə bilər. Həqiqətən də bir çox insan özünü düşünməkdən uzaq tutan əsl şeyin dünyada aparmaq məcburiyyətində qaldığı mübarizə olduğunu iddia edər. Qidalanma, sığınacaq tapma və sağlamlıq kimi problemlər üzündən

düşünməsinin mümkün olmadığını söyləyər. Halbuki, bu qaçışdan və özünü aldatmaqdan başqa bir şey deyil. İnsanın məsuliyyətləri və içində olduğu vəziyyət ilə düşünməsi arasında heç bir əlaqə yoxdur. Çünki, Allahın razı qalması üçün düşünməyə çalışan insan Allahdan kömək görəcəkdir. Görəcək ki, özü üçün problem kimi görünən bir çox şey bir birinin ardınca həll olur, hər keçən gün düşünməyə daha çox vaxt ayırır. Bu ancaq möminlərin yaşayıb anlaya biləcəkləri bir mövzudur.

### Rəngarəng bir dünyanın düşündürdükləri

Səfərinə davam edən insan ətrafında hər an Allahın dəlillərini, yaradılış möcüzələrini görməyə, bunlar üzərində düşünərək Rəbbimizin ucalığını təqdir etməyə çalışır. Avtomobilin şüşəsindən çölə baxdığında rəngarəng bir dünya ilə qarşılaşar. Bununla da belə düşünər: "Yaxşı, ya dünya rəngarəng olmasaydı, hər şey necə olardı?"

Məsələn, aşağıdakı şəkillərə baxın və siz də düşünün. Tamamilə rəngsiz bir dənizdən və ya bir dağ mənzərəsindən və yaxud da bir çiçəkdən indi aldığımız kimi zövq ala bilərdikmi? Səmanın, meyvələrin, kəpənəklərin, geyimlərin, insanların üzlərinin görüntüləri indiki kimi zövq verərdimi? Rəngarəng, parlaq bir dünyada yaşamağımız bizə Rəbbimizin bəxş etdiyi bir nemətdir. Təbiətdə gördüyümüz hər rəng, canlılardakı rənglərin bir-birləriylə olan qüsursuz ahəngi Allahın bənzərsiz sənətinin və bənzərsiz yaratmasının dəlilləridir. Məsələn, bir çiçəyin və ya bir quşun sahib olduğu rənglər və bu rənglərin bir-birləriylə uyğunlaşması və ya rənglər arasında cüzi keçidlər olması, təbiətdə heç bir rəngin gözümüzü narahat etməməsi, məsələn, dənizlərin, göyün, ağacların rənginin bizə rahatlıq verəcək, gözümüzü yormayacaq çalarlarda olması Allahın qüsursuz yaratma sənətini göstərir. Bütün bunları düşünən bir insan, ətrafında gördüyü hər şeyin Allahın sonsuz elminin və qüdrətinin bir əsəri olduğunu anlayar. Allahın bizə verdiyi bütün bu nemətlər qarşısında isə "içi titrəyərək" Allahdan qorxub çəkinər və nankor bir insan olmaqdan Allaha sığınar. Allah Quranda rənglərin varlığını xatırladaraq, ancaq alim olanların, yəni düşünüb araşdıran və bunlardan nəticə çıxaran insanların Allah qorxusuna sahib olduqlarını belə bildirir:

**Məgər Allahın göydən yağmur endirdiyini görmədinmi?. Onunla müxtəlif rəngli meyvələr yetişdirdik. Dağlarda da müxtəlif rəngli ağ, qırmızı və tünd qara cığırlar əmələ gətirdik. İnsanlar, heyvanlar və davarlar arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah Qüdrətlidir, Bağışlayandır.(Fatir surəsi, 27-28)**

### Yolda görülən bir cənazə avtomobilinin düşündürdükləri

Bir yerə çatmağa çalışan insanın qarşısına qəflətən bir cənazə avtomobili çıxa bilər. Bu isə əslində insanı özünə gətirə biləcək çox əhəmiyyətli bir fürsətdir. Qarşısına çıxan bu mənzərə ona ölümü xatırlatmışdır. Bir gün özü də o avtomobilin içində olacaqdır. Buna heç bir şübhə yoxdur, nə qədər qaçsa da gec-tez ölüm onu tapacaqdır. Bəlkə yatağında, bəlkə yolda, bəlkə də istirahət etdiyi bir yerdə bu dünyadan mütləq ayrılacaqdır. Çünki, ölüm qaçılmaz bir həqiqətdir.

Məhz belə bir anda möminin ağlına Allahın bu ayələri gələcəkdir:

**Hər kəs ölümü dadacaqdır. Sonra da Bizə qaytarılacaqsınız. İman gətirib xeyirxah işlər görənləri ağacları altından çaylar axan Cənnətdəki hündür köşklərdə yerləşdirəcəyik. Onlar əbədi olaraq orada qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir! O kəslər ki, səbirli olmuş və yalnız öz Rəbbinə təvəkkül etmişlər. (Ənkəbut surəsi, 57-59)**

İnsanın öz bədəninin də sonunda taxta bir tabuta qoyulacağını, üstünün yaxınları tərəfindən torpaqla örtüləcəyini, bir məzar daşında adının və soyadının yazılacağını düşünməsi, onun dünyaya olan bağlılığını aradan qaldırar. Bunu çox səmimi və həqiqi bir şəkildə düşünən insan bir gün torpağın altında çürüyəcək bir bədənə sahib çıxmağın nə qədər mənasız olduğunu görər.

Allah, Ənkəbut surəsindəki ayələrdə səbr edənləri və təvəkkül edənləri ölümlərindən sonra cənnətlə müjdələmişdir. Buna görə də bir gün öləcəyini düşünən mömin, Cənnətə qovuşmaq üçün də Allahın əmr etdiyi gözəl əxlaqı yaşamağa çalışar. Hər dəfə ölümün yaxınlığını düşündüyündə bu mövzudakı qərarlılığı artar və həyatı boyunca getdikcə gözəlləşən üstün bir əxlaqa sahib olmağa çalışar.

Həmişə başqa düşüncələrə əhəmiyyət verib, boş xülyalarla həyatlarını keçirən insanlar isə, nəinki bir cənazə avtomobiliylə qarşılaşmaq, hər gün qəbristanlığın qarşısından keçsələr, hətta yanlarında çox dəyər verdikləri biri ölsə belə, bunun bir gün mütləq öz başlarına da gələcəyini düşünməzlər.

### Gün ərzində...

Mömin gün ərzində qarşılaşdığı hadisələr qarşısında həmişə Allahın ayələrini düşünər, hadisələrdəki incəlikləri, Allahın yaratmasındakı hikmətləri və xeyirləri qavramağa çalışar.

Qarşısına çıxan bir gözəlliyə və ya uğursuzluq kimi görünən hər hadisəyə həmişə Allahın məmnun olacağı gözəl əxlaq çərçivəsində reaksiya verər. İman edən bir insan üçün olduğu mühitin bir əhəmiyyəti yoxdur; məktəbdə, işdə və ya alış-verişdə də olsa daim hər şeyi Allahın yaratdığını düşünərək, Onun yaratdığı

gözəllikləri, hadisələrdəki hikmətləri görməyə çalışar, Rəbbimizin ayələrinə uyğun bir həyat sürər. İnananların bu rəftarı ayələrdə belə xəbər verilir:

**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, dosdoğru namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. Bu ona görədir ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah istədiyinə hesabsız ruzi verir. (Nur surəsi, 37-38)**

## Görülən işdə qarşılaşılan çətinliklərin düşündürdükləri

İnsan gün ərzində müxtəlif çətinliklərlə qarşılaşa bilər. Amma qarşılaşdığı çətinlik nə olursa olsun Allaha təvəkkül etməli və bunları düşünməlidirlər: "Allah bizi bu dünya həyatında etdiyimiz və düşündüyümüz hər şeylə sınayır. Bu, bir an belə ağlımızdan çıxarmamağımız lazım olan çox əhəmiyyətli bir həqiqətdir. Elə isə gördüyümüz hər hansı bir işdə bir çətinliklə qarşılaşdığımızda və ya öz düşüncəmizə görə işlərin yolunda getmədiyini zənn etdiyimizdə, bu hadisələrin hamısının bizim necə reaksiya verəcəyimizi sınamaq üçün qarşımıza çıxarıldığını əsla unutmamalıyıq".

İnsanın ağlından keçən bu düşüncələr, gündəlik həyatda qarşılaşılan böyük və ya kiçik hər hadisə üçün etibarlıdır. Məsələn, bir iş yerində bir səhv anlamadan ötrü və ya birinin unutqanlığı üzündən səhv yerə ödəniş ödənilə bilər, saatlarla kompyuterdə üzərində iş görülən bir fayl elektrikin kəsilməsi ucbatından bir anda yox ola bilər, bir şagird həddindən çox çalışmasına baxmayaraq universitetə qəbul imtahanından keçməyə bilər, təqib edilən bir işdə bir çox bürokratik proseduradan ötrü bir insanın günləri növbələrdə gözləməklə keçə bilər, davamlı bir sənədi əskik çıxa bilər və bu səbəblə də işləri ləngiyə bilər, bir insan çox təcili surətdə yetişməsi lazım olan bir yerə gedərkən təyyarəyə, avtobusa yubana bilər... Hər kəsin öz həyatı içində qarşılaşa biləcəyi, öz aləmində çətinlik və uğursuzluq olduğunu zənn etdiyi bu cür saysız hadisə vardır.

Ancaq imanlı bir insan dərhal bu hadisələrin hər birində Allahın özünün necə rəftar göstərəcəyini və səbrini sınadığını, öləcək və axirətdə hesab verəcək bir insanın bu hadisələrə fikir verib, bunlara görə kədərlənib vaxt itirməsinin yersiz olduğunu düşünər. Bütün bu hadisələrin arxasında bir xeyir olduğunu bilir. Heç bir hadisə qarşısında "əfsuslar olsun!" deməz. Allaha işlərini asanlaşdırması üçün dua edər və bir çətinliyin arxasından asanlıq gəldikdə, bunun Allaha etdiyi duanın bir qarşılığı olduğunu, Allahın duaları eşidən və onlara cavab verən olduğunu düşünər və Allaha şükr edər.

Bunları düşünərək gününə davam edən insan nəylə qarşılaşırsa qarşılaşsın, heç vaxt ümidsizliyə qapılmaz, narahat olmaz, qorxub kədərlənməz, çarəsiz vəziyyətdə

qalmaz. Allahın hər şeyi bir xeyir və gözəlliklə yaratdığını bilər. Üstəlik bunu yalnız başına gələ biləcək böyük hadisələrdə deyil, bir qədər əvvəl danışdığımız kimi, gündəlik həyatda qarşılaşdığı kiçik-böyük hər incəlikdə düşünər.

Məsələn, planladığı əhəmiyyətli bir işi istədiyi kimi getməyən, tam müvəffəqiyyət qazanmaq üzrə olduğu son anda ciddi bir çatışmazlıqla qarşılaşan bir insan düşünün. Əgər bu insan imanın gətirdiyi dərin qavrayışa sahib deyilsə, qəfildən hirslənər, sıxıntıya düşər, kədərlənər, bir sözlə, hər cür mənfi halı yaşayar. Halbuki hər şeydə bir xeyir olduğunu düşünən bir insan Allahın bu hadisə ilə özünə göstərdiyi hikmətləri düşünüb tapmağa çalışar. Bu şəkildə Allahın bu mövzuda daha qəti tədbirlər almasının lazım olduğuna diqqət çəkmiş ola biləcəyini düşünər. Texniki baxımdan bütün lazımi tədbirləri görər və "bəlkə də bu şəkildə daha əhəmiyyətli zərərlərin meydana gəlməsi qarşısı alınmışdır" deyərək Allaha şükr edər.

Bir yerə çatmağa çalışarkən minəcəyi avtobus artıq yola düşmüş olsa, "bəlkə gecikmək və ya bu avtobusa minməmək məni bir qəzadan və ya başqa bir pislikdən qorumuşdur" deyə düşünə bilər. Bunlar yalnız bir neçə nümunədir, "bunun kimi daha bir çox hikməti ola bilər" deyə də düşünər. Bu nümunələr çoxaldıla bilər. Ancaq əhəmiyyətlisi budur ki, insanın qurduğu planlar həmişə istədiyi kimi nəticə verməyə bilər. Adam özünü bir anda qurduğu plandan çox fərqli bir mühitdə tapa bilər. Məhz belə bir vəziyyətdə təvəkküllü davranan, qarşılaşdığı hadisədə xeyir axtaran adam qazanclı çıxar. Çünki, Allah ayəsində insanlara belə bildirir:

**...Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz. (Bəqərə surəsi, 216)**

Allahın ayəsində də bildirdiyi kimi, biz bilmərik ancaq Allah bilər. Bu səbəbdən də bizim üçün nəyin xeyirli, nəyin zərərli olduğunu bilən də Allahdır. İnsana düşən tək şey isə sonsuz mərhəmət sahibi və himayədar olan Allahı özünə dost tutmaq və Allaha tamamilə təslim olmaqdır...

## Bir iş görərkən düşünülənlər

Bir insanın hər hansı bir işi görərkən beyninin boş durmaması və daim xeyirli şeylər düşünməsi çox əhəmiyyətlidir. Çünki, insan eyni anda bir neçə şeyi edə bilmə potensialına malikdir. Məsələn, avtomobil idarə edən, evini təmizləyən, idman edən, yolda yeriyən hər insan eyni zamanda xeyirli bir şeylər də düşünə bilər.

Təmizlik işi görən bir insan, Allahın özünə su, yuyucu maddə kimi şeyləri verməsindən ötrü Ona şükr edər. Allahın təmizliyi və təmiz insanları sevdiyini bildiyi üçün gördüyü işi bir ibadət kimi görər və Allahın məmnuniyyətini qazanmağı ümid

edər. Həmçinin olduğu məkanı təmizləyərək digər insanlar üçün də rahatlıq verici bir mühit yaratmaqdan zövq alar və ya hər hansı bir işi görən bir insan daim qəlbində Allaha dua edər, Rəbbimizdən gördüyü işi asanlaşdırmasını istəyər, Allah istəmədikcə heç bir işdə müvəffəqiyyət qazana bilməyəcəyini düşünər. Quranda bizə nümunə olaraq göstərilən peyğəmbərlərin öz içlərində daim Allaha yönəldiklərini, bir iş görərkən həmişə Allahı düşündüklərini görərik. Bu müqəddəs insanlardan biri hz. Musadır. Hz. Musa yolda gedərkən qarşılaşdığı qadınların sürülərinə su içirmələrinə kömək etdikdən sonra Allaha yönəlmişdir. Bu hadisə ayələrdə belə xəbər verilir:

**Mədyən sularına gəlib çatanda quyunun başında heyvanlarına su verən adamlar gördü. Onların yaxınlığında da qoyunlarını o biri heyvanlardan geri çəkən iki qız görüb: "Sizə nə olub?" dedi. Onlar dedilər: "Çobanlar heyvanlarını sürüb aparmamış biz qoyunlarımıza su verə bilmirik. Atamız da çox qocadır". Musa onların yerinə qoyunlara su verdi, sonra da kölgəyə çəkilib dedi: "Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyirə ehtiyacım var!" (Qəsəs surəsi, 23-24)**

Bu mövzuda Quranda gördüyümüz başqa bir nümunə də hz. İbrahim və hz. İsmayıldır. Allah bu peyğəmbərlərin birlikdə bir iş görərkən digər iman edən insanlar üçün xeyirli şeylər düşündüklərini və Özünə yönələrək bu mövzuda dua etdiklərini xəbər vermişdir. Ayələrdə belə buyurulur:

**O zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini qaldırarkən belə dua etdilər: "Ey Rəbbimiz! Bunu bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən! Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq (müsəlmanlar), nəslimizdən də Sənə təslim olan (müsəlman) bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən! Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin! Həqiqətən, Sən güclü və üstün olan, hökm və hikmət sahibisən!" (Bəqərə surəsi, 127-129)**

## Bir hörümçək torunun düşündürdükləri

Gününü evində keçirən bir insanın da düşünə biləcəyi çox şey vardır. Məsələn, evini təmizləyərkən onun bir küncündə özünə tor qormuş bir hörümçək görə bilər. Əgər normalda heç kimin əhəmiyyət vermədiyi bu heyvan haqqında düşünməsinin lazım olduğunu başa düşsə, üzünə yeni qapılar açıldığını görəcək. Çünki, qarşısında gördüyü kiçik həşərat Allahın üstün yaradıcılığının bir nümunəsidir. Bu hörümçəyin hördüyü torda mükəmməl bir simmetriya vardır. Üstəlik hörümçək bu toru olduqca

sürətli və ardıcıl şəkildə hörür, bu işi görərkən geriyə çəkilib simmetrik olubdurmu, yoxsa olmayıbdırmı deyə bir dəfə belə nəzarət etmir. Amma ortaya olduqca nizamlı bir struktur çıxır. İnsan bu heyrətamiz qüsursuzluqdakı simmetriyanı kiçik bir hörümçəyin necə meydana gətirməyi bacardığı ilə maraqlanıb bir qədər araşdırdığında başqa həqiqətlərlə qarşılaşar: Hörümçəyin istifadə etdiyi iplik, eyni qalınlıqdakı kauçukdan 30% daha elastikdir. Hörümçəyin hazırladığı bu iplik elə üstün bir xüsusiyyətə malikdir ki, insanlar tərəfindən güllə keçirməz jiletlərin hazırlanmasında nümunə olaraq götürülür. Yəni bir çox insanın sadə bir hörümçək toru olaraq gördüyü şey, əslində dünyadakı ən ideal sənaye məhsullarıyla ekvivalent bir maddədir.

Ətrafındakı canlılarda qüsursuz bir nizamın varlığına şahid olan insan bu mövzuda düşünməyə davam etdikcə daha da təəccüblü həqiqətlərlə qarşılaşır. Daim qarşılaşdığı halda heç bir əhəmiyyət vermədiyi, hətta bəlkə də əsəbiləşib öldürməyə çalışdığı bir milçəyi araşdırdığında onun çox həssas və müfəssəl bir təmizlik anlayışına sahib olduğunu görər. Milçək tez-tez bir yerə qonaraq əllərini və ayaqlarını ayrı-ayrılıqda təmizləyər. Sonra da qanadlarını, üzünə bulaşan tozları əlləri və ayaqları ilə asta-asta təmizləyər. Təmizləndiyindən əmin olana qədər də bu əməliyyatları davam etdirər. Digər bütün milçək və həşərat növləri də eyni şəkildə, eyni əhəmiyyəti verərək və həssaslıqla təmizlənər. Bu da təmizlənməyi onlara Uca Allahın öyrətdiyini göstərir.

Eyni milçək uçarkən qanadlarını saniyədə təxminən 500 dəfə çırpar. İnsanların hazırladığı heç bir mexanizm belə bir sürətə tab gətirə bilməz, sürtünmədən parça-parça olar və alışıb yanar. Lakin, milçəyin nə qanadlarına, nə əzələlərinə, nə də oynaqlarına heç bir zərər gəlməz. Küləyin gücünü və istiqamətini də hesablayaraq istədiyi istiqamətə doğru yolunu azmadan uça bilər. İnsan hal-hazırda sahib olduğu texnoloji imkanlar vasitəsiylə belə, bu üstün xüsusiyyətlərə və uçuş texnikalarına sahib bir mexanizm icad edə bilməz. Amma milçək deyib də üstündən keçdiyi və çox vaxt əhəmiyyət belə vermədiyi bir canlı, insanın bacara bilmədiyi böyük bir işi bacarır. Əlbəttə ki, milçəyin bunu öz qabiliyyətləri və zəkasıyla etdiyini iddia etmək qeyri-mümkündür. Milçəkdəki bu üstün xüsusiyyətlər Allahın ona verdiyi qabiliyyətlərdir.

İnsanın ətrafına baxdığında gördüyü hər nöqtədə gözlə görülən və görülməyən bəzi canlılar vardır. Dünya üzərində canlıların olmadığı tək bir kvadrat santimetr yer belə yoxdur. İnsanlar, bitkilər, heyvanlar görə bildiyi canlılardır, amma bir də bunlarla yanaşı görə bilmədiyi, lakin varlıqlarından xəbərdar olduğu canlılar vardır. Məsələn, oturduğu evin içində hər yer "gənə" adı verilən mikroskopik canlılarla doludur. Eynilə tənəffüs etdiyi havada saysız-hesabsız virus gəzir ya da bağçasındakı torpaqda təsəvvür edilməyəcək qədər xeyli miqdarda bakteriya yaşayır.

Dünyada yaşayan inanılmaz saydakı canlıları düşünən insanın ağlına bir də bu canlılardakı qüsursuz sistemlər gəlir. Gördüyü canlıların hamısı Allahın sənətinin

açıq-aşkar bir dəlilidir, amma eynilə mikroskopik canlılarda da böyük möcüzələr gizlənmişdir. Gözlə görə bilmədiyimiz bir virusun, bakteriyanın, ya da gənənin özlərinə aid bədən mexanizmləri vardır. Hər birinin yaşadığı mühiti, qidalanma şəklini, nəsil vermə və müdafiə sistemlərini Allah yaratmışdır. Bunları düşünən adamın ağlına Allahın ayələri gəlir. Bir ayədə belə buyurulur:

**Neçə-neçə canlılar vardır ki, ruzisini öz yanında daşıya bilmir. Onların da, sizin də ruzinizi Allah verir. O, Eşidəndir, Biləndir (Ənkəbut surəsi, 60)**

## Xəstəliklərin düşündürdükləri

İnsan bir çox çatışmazlığı olan və bu çatışmazlıqlarını aradan qaldırmaq üçün daim səy göstərməsi lazım olan bir varlıqdır. Xəstəliklər insanların acizliklərini çox açıq bir şəkildə büruzə verər. Bu səbəblə də insan özü və ya bir tanışı xəstələndiyində mütləq bunun hikmətləri barəsində düşünməlidir. Düşünüldükdə ən bəsit görülən bir qrip xəstəliyinin belə insana öyüd ala biləcəyi ibrətlər daşıdığını görər. Belə bir xəstəliyə tutulduğunda bunları düşünər: Əvvəlcə qripə səbəb olan şey gözlə belə görülməyəcək qədər kiçik bir virusdur. Ancaq bu qədər kiçik bir canlı 60-70 kilo ağırlığındakı bir insanı taqətdən salmağa, yeriyə bilməyəcək, hətta danışa bilməyəcək qədər əldən salmağa kifayət edər. Çox vaxt aldığı dərmanlar, yediyi yeməklər də bir fayda verməz. Tək edə biləcəyi şey yatıb gözləməkdir. Bədənində özünün qətiyyən müdaxilə edə bilmədiyi bir döyüş baş verir. Kiçik bir canlı qarşısında insanın əl-qolu bağlanır. Belə bir vəziyyətdə ağlına ilk növbədə uca Rəbbimiz olan Allahın bu ayələri gəlməlidir:

**O Rəbb ki, məni yedirdir və içirdir;**

**O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir;**

**O Rəbb ki, məni öldürəcək, sonra diriləcəkdir;**

**O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram.**

**Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! (Şuəra surəsi, 79-83)**

Hər hansı bir xəstəliyə tutulan bir adam eyni zamanda sağlam vaxtlarındakı rəftarı ilə, xəstələndikdən sonrakı rəftarını müqayisə edib, ikisinin arasındakı fərqi düşünməlidir. Xəstə olduğu vaxtlardakı təvazökar halını, Allaha olan möhtaclığını necə hiss etdiyini, məsələn, bir əməliyyata girərkən hər şeyin hakimi olan Allaha necə qəlbən və güclü şəkildə dua etdiyini heç unutmaması lazım olduğunu dərk etməlidir.

Başqa bir insanın xəstəliyinə şahid olduğunda da dərhal öz sağlamlığını düşünərək Allaha şükr etməlidir. Məsələn, bir mömin ayağı şikəst qalmış birini gördüyündə, ayağının özü üçün nə qədər böyük və əhəmiyyətli bir nemət olduğunu düşünər. Hər səhər yuxudan qalxan kimi rahatlıqla istədiyi yerə yeriyib getməyin, lazım gəldikdə qaça bilməyin, heç kimə möhtac olmadan hər işini asanlıqla görə bilməyin Allahın bir lütfü olduğunu anlayar. Bu şəkildə müqayisə edərək düşündüyü üçün, əlindəki nemətlərin dəyərini daha da yaxşı qavrayar.

**Təkəbbürlü, ərköyün, təcavüzkar, pis əxlaqlı biri ilə qarşılaşıldığında nələr düşünülər?**

Bir insan gün ərzində iş yerində və ya məktəbdə bir çox fərqli insanla qarşılaşa bilər. Əlbəttə ki, bu insanların hamısı özü kimi gözəl əxlaqlı, Allahdan qorxan insanlar olmaya bilər. Belə insanlarla qarşılaşan adam yenə Allahın əmr etdiyi üstün əxlaqı yaşayar, onlardan əsla təsirlənməz. Onların bütün bu pis əxlaq xüsusiyyətlərinə yiyələnmələrinin səbəbinin, Allahdan qorxmamaları və axirətə inanmamaları olduğunu bilir və ağlına bunlar gəlir: Allah insanları cəhənnəm əzabı ilə qorxudur və beləcə onların sonsuz bir əzabı düşünərək, dünya həyatındakı davranışlarını düzəltmələrini, qəlbən Özünə yönəlmələrini və dini səmimi şəkildə yaşamalarını istəyir. İnsan belə böyük və əhəmiyyətli bir təhdidlə qarşı-qarşıya olduğunu dərk etsə, mütləq bu təhlükədən qorunmaq üçün tədbirlər görər. Ancaq bu təhlükəni düşünməyən və dolayısilə əhəmiyyətini qavraya bilməyən insanlar, sanki onlar üçün hazırlanmaqda olan atəş və əzab dolu bir məkan yoxmuş kimi davranarlar.

Bu həqiqətləri bilən adamın ağlına çox əhəmiyyətli başqa mövzular da gəlir. Bu insanların hər biri cəhənnəm odunun kənarında dayandıqları vaxt rəftarları tam fərqli olacaq. Məsələn, bu gün ərköyün, həyasız və təkəbbürlü rəftarlar nümayiş etdirməkdən çəkinməyən bir insan, haqq-hesab günündə tutularaq, yerlərdə süründürülərək və daim alçaldılaraq cəhənnəm çuxurunun kənarına gətirilsə, üzündəki ifadə, rəftarı, danışıq üslubu, istifadə etdiyi sözlər indiki kimi olmayacaq və ya təcavüzkar, saygısız, günaha meyilli, heç bir insani xüsusiyyəti qalmamış bir insan yenə eyni şəkildə cəhənnəm odunun kənarına gətirilsə, cəhənnəm əzabını gördüyündən ötrü əbədi bir peşmanlıq çəkəcək.

Dünya həyatında din əxlaqını yaşamamaq, ibadətlərini yerinə yetirməmək üçün müxtəlif bəhanələr sayan biri, cəhənnəmin qapısında gözləyərkən özünə namaz qılması deyilsə eyni bəhanələri söyləyə bilməyəcəkdir.

Məhz Allahdan qorxan adam bu həqiqətləri əsla ağlından çıxarmaz. Cəhənnəm odunu düşünər və bu sayədə doğru rəftarın, doğru sözün, gözəl əxlaqın nə olduğunu görər. Cəhənnəmin varlığına qəti olaraq inandığı və həmişə onu

düşündüyü üçün, daim cəhənnəm odunun tam yanındaymış kimi və etdiyi hər şeydən ötrü haqq-hesaba çəkiləcyini düşünərək davranar.

Allah insanlara cəhənnəmi və haqq-hesab gününü düşünmələrini belə bildirmişdir:

**Hər kəsin etdiyi yaxşı əməlləri qarşısında hazır görəcəyi və özü ilə pis əməllərinin arasında çox böyük məsafə olmasını arzulayacağı o günü düşünün. Allah sizi Özündən çəkindirir. Allah qullarına Şəfqətlidir". (Al-i İmran surəsi, 30)**

**Yemək yeyərkən...**

**Sizin üçün yeri məskən, göyü də tavan edən, sizə surət verib surətlərinizi gözəl şəklə salan, sizə pak nemətlərdən ruzi verən Allahdır. Budur sizin Rəbbiniz olan Allah. Aləmlərin Rəbbi olan Allah nə qədər xeyirxahdır! (Mömin surəsi, 64)**

Allah insanlara dünyada növbənöv, gözəl, təmiz, dadanların ləzzət aldığı yemək və içkilər vermişdir. Əlbəttə ki, bunların hamısı Allahın sonsuz lütfünün və insanlar üzərindəki rəhmətinin bir təcəllisidir. İnsanlar bəlkə də yalnızca bir növdəki yemək və içkilərlə də yaşaya bilər, amma Allah insanlara çoxlu nemət vermişdir; meyvələr, tərəvəzlər, növbənöv ətlər...

Bu nemətlərin hamısını Allahın verdiyini bilən mömin də hər dəfə süfrəyə oturduqda bunlar üzərində düşünər və Rəbbimizə şükr edər.

**Yemək yeyərkən stola gələn meyvələri gördükdə nələr düşünülər?**

Quranın bir çox ayəsində Allahın insanlara fərqli yeməklər verərək, onlara öz ruzisindən verdiyindən bəhs edilir. Yemək süfrəsinə oturan bir adamın qarşısına bu nemətlər düzülmüşdür. Torpaqdan çıxan cürbəcür bitkilər, heyvan mənşəli məhsullar süfrələri bəzəyir. İnsan bunlardan zövq alacaq şəklidə yaradılmışdır. Hər biri bir-birindən ləzzətli olan bu yeməklər eyni zamanda insanın yaşaması üçün də zəruridir. Bir düşünək yaşamağımız üçün lazım olan qidaların heç bir ləzzəti olmasaydı ya da dadları çox pis olsaydı nə edərdik? və ya çox ləzzətli olmalarına baxmayaraq bunlar bizim üçün zərərli olsaydı... və yaxud da yalnız bir neçə növ yemək olsaydı və insan bunlardan yalnız yaşamaq üçün istifadə etmiş olsaydı. Süfrədə gördüyünüz şəkildə bir mənzərə ilə qarşılaşmağınızın tək səbəbi Allahın sizə olan lütfü və rəhmətidir. İnsan yalnız meyvələr haqqında belə düşünsə üzərindəki neməti görəcək.

Oturduğu yemək süfrəsində növbənöv meyvələri görən şüurlu bir insan bunları düşünər:

- Qapqara bir palçığın içindən, rəngarəng, cürbəcür qoxularda, içləri tərtəmiz olan meyvələrin çıxması, hər birinin dadının çox gözəl və ləzzətli olması Allahın insanlara təqdim etdiyi böyük bir nemətdir.

- Banan, naringi, portağal, qovun, qarpız, bir sözlə, bütün meyvələr paketləriylə birlikdə yaradılmışlar. Hamısının qabığı meyvəni çürüməkdən, xarab olmaqdan qoruyur. Qoxuları da paketlərinin içində gizlənmişdir. qaralmağa və xarab olmağa başlayarlar.

- Meyvələrin hər biri ayrı-ayrılıqda araşdırıldığında bir çox incəliklərə sahib olduqları görülər. Məsələn, portağal və naringi xüsusi olaraq dilimlənmişdir. Bütöv olsaydılar o qədər sulu bir meyvəni yemək insan üçün çətin ola bilərdi. Amma Allah bunları kiçik dilimlər halına gətirərək insanlara asanlıq təmin etmiş və bir gözəllik bəxş etmişdir. Şübhəsiz ki, meyvənin içindəki bu qüsursuz, ehtiyaca uyğun və son dərəcə estetik nizam, üstün bir elm sahibi olan Allahın yaratma sənətinin dəlillərindəndir.

- Məsələn, çiyələk görüntüsü və dadı etibarilə çox xüsusi bir meyvədir. Üzərindəki naxışları sanki həssaslıqla ölçülərək əl işi ilə işlənmiş kimidir. Qırmızı və estetik formasından əlavə, yaşıl yarpaqları ilə Allahın bənzərsiz sənətinin əsərlərindən biridir. Dadlı, gözəl qoxulu, çəyirdəksiz və qabıqsız olduğu üçün yeyilməsində heç bir problem olmaması insana cənnət meyvələrini xatırladır. Demək olar ki, torpağın içində yetişən bir meyvənin bu qədər gözəl və valehedici bir rəngə, bu qədər gözəl bir qoxuya sahib olması, onu nümunəsiz olaraq yaradan, sənətini, ağlını və elmini yaratdığı varlıqlarda göstərən Rəbbimizi bizə tanıdır.

- Hər mövsümdə fərqli meyvələrin yetişməsi də üzərində düşünməyə dəyər bir mövzudur. Məsələn, qışda insanların vitaminə ən çox ehtiyac duyduqları dövrdə, naringi, portağal və qreyfrut kimi C vitamini ilə zəngin meyvələrin olması, yayda isə insanların susuzluğunu aradan qaldıraraq rahatlamalarını təmin edən albalı, qovun, qarpız, şaftalı kimi meyvələrin çıxması Allahın insanlara olan lütfü və nemətidir.

- Meyvələrin budaqlarındakı və ya əkili haldakı görüntüləri də Allahın təqdim etdiyi bir gözəllikdir. Qupquru bir odunun üstündə içi sulu, bir çoxunun da xarici səthi xüsusi olaraq cilalanmış kimi, budağına möhkəm şəkildə bağlanmış yüzlərlə meyvə görüntüsü də, bunların hər birinin Allah tərəfindən yaradıldığının dəlillərindəndir. Məsələn, salxım-salxım üzümlər sanki ayrı-ayrılıqda üzüm kollarına yerləşdirilmiş kimidir. Allah hər birini nümunəsiz və bənzərsiz yaratmışdır. Budaqlarındakı görüntüləri isə insanların xoşlayacağı hala salınmışdır. Bu səbəblə də Allah Quranda cənnəti təsvir edərkən; **(Meyvələrin) kölgəsi onlara çox yaxındır, yığılmaları da asanlaşdırıldıqca asanlaşdırılmışdır (İnsan surəsi, 14)** ayəsiylə cənnət meyvələrinin yığılmağa, yəni budaqlarından qoparılmağa hazır olduqlarını bildirir.

Əlbəttə ki, burada sayılanlar yalnızca bir neçə nümunədir. Allahın yaratdığı nemətlər saymaqla bitməyəcək qədər müxtəlifdir. Yemək süfrəsində bunu görən adamın ağlına Allahın başqa bir ayəsi gələr:

**Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Artıq öyüd alıb düşünməyəcəksinizmi? Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Nəhl surəsi, 17-18)**

## Dadların və qoxuların düşündürdükləri

İnsan bu şəkildə düşünməyə davam etdikcə, Allahın yaratdığı gözəllikləri və incəlikləri daha yaxşı görməyə başlayar. Vicdanlı bir insan bütün bunları düşünərkən, eyni zamanda Allahın bəxş etdiyi bu nemətlərdən zövq ala bilməyin də yenə Rəbbimizin böyük bir lütfü olduğunu ağlından keçirər. Xüsusilə də Allahın insanlara verdiyi dadbilmə və iybilmə hislərini dünyadakı bir çox gözəlliyi hiss etməyimiz üçün yaratdığını xatırlayar və belə düşünər: Əgər iybilmə duyğumuz olmasaydı gülün qoxusundan, yediyimiz meyvələrdən və qızartmadan indiki kimi zövq ala bilməzdik. Əgər dadbilmə duyğumuz olmasaydı şokoladın, şirniyyatların, ətin, çiyələyin və digər nemətlərin bənzərsiz dadlarının necə olduğunu heç bilməyəcəkdik.

Unutmamaq lazımdır ki, rəngsiz, dadsız və qoxusuz bir dünyada da yaşaya bilərdik və Allah bizə bu nemətləri verməsəydi, bu gözəl nemətləri biz heç bir şəkildə əldə edə bilməzdik. Ancaq Allah həm qoxuları və dadları, həm də bunları qəbul edən duyğu sistemlərini yaradaraq insana sonsuz rəhmətindən bir pay vermişdir.

## Bağçada gəzərkən...

## Təbiətdə görülən gözəlliklərin düşündürdükləri

Allaha iman edən insan təbiətdə gördüyü gözəlliklər qarşısında Rəbbimizi tərifləyər. Mövcud olan bütün gözəllikləri hər şeyin hakimi olan Allahın yaratdığını bilir. Bütün gözəlliklərin Allaha aid olduğunu, Onun Camal sifətinin təcəlliləri olduğunu bilir.

İnsan təbiətdə gəzərkən qarşısına həmişəkindən çox gözəllik çıxar. Tək bir otdan sarı rəngli bir çobanyastığına, quşlardan qarışqalara qədər hər şey üzərində düşünməyi tələb edən incəliklərlə doludur. İnsan bunlar üzərində düşündükcə Allahın gücünü və qüdrətini anlayar.

Məsələn, kəpənəklər son dərəcə estetik və göz oxşayan varlıqlardır. Çox nazik tülə bənzər qanadlarının üzərindəki simmetriya, naxışların əllə çəkilmiş kimi olduqca

müntəzəm olması, bir-biriylə uyğun, parlaq rəngləri ilə Uca Allahın bənzərsiz sənətinin və üstün yaratma gücünün dəlillərindəndir.

Eynilə yer üzündəki saysız-hesabsız bitki növü və ağaclar da Bari olan, yəni yaradan, yoxdan var edən Allahın yaratdığı gözəlliklərdir. Hər biri bir-birindən tamam fərqli rənglərə sahib çiçəklər və fərqli görünüşdəki ağaclar insanlara zövq verəcək görünüşdə yaradılmışlar.

İman edən adam itburnu, bənövşə, çobanyastığı, sünbülçiçək, səhləb, qərənfil və digər çiçəklərin necə olub da bu qədər hamar səthlərə sahib olduğunu, tumurcuğun içindən az da olsa qırışıqlıqları olmadan dümdüz ütülənmiş kimi necə çıxa bildiklərini düşünər.

Allahın yaratdığı başqa bir gözəllik də bu çiçəklərin möhtəşəm qoxularıdır. Məsələn, bir gül bitkisinin daim ətrafına yaydığı, heç dəyişməyən kəskin bir qoxusu vardır. Ən son texnologiyayla belə bu gül qoxusunun bənzərini hazırlamaq olmur. Laboratoriyalarda bu qoxunun bir bənzəri yaradılmağa çalışıldıqda əldə olunan nəticə son dərəcə qeyri-kafi olur. Bir gülün qoxusuna bənzətməyə çalışılaraq alınan qoxular ümumiyyətlə insanda narahatlığa səbəb olan kəskin qoxulardır. Halbuki qızılgül qoxusu insanda heç bir narahatlığa səbəb olmaz.

İman edən adam bunların hər birinin insanın Allahı tərifləməsi, yaratdığı gözəlliklərdə Allahın sənətini və elmini görə bilməsi üçün yaradılan varlıqlar olduğunu bilir. Bu səbəblə də bağçasında gəzərkən bu gözəllikləri gördüyündə **"maşallah! Qüvvət yalnız Allaha məxsusdur!" (Kəhf surəsi, 39)** deyərək Allahı ucaldar. Allahın bütün bu gözəllikləri insanların xidmətinə verdiyini və axirətdə bunlarla müqayisə edilə bilməyəcək üstünlükdəki gözəllikləri iman edənlərə verəcəyini xatırlayar və bundan ötrü də Rəbbimizə olan sevgisi qat-qat artar.

### Bağçada gəzərkən gördüyünüz bir qarışqa üzərində heç düşündünüzmü?

Bəzi insanlar ətraflarında gördükləri canlılar üzərində düşünməyi elə də əhəmiyyətli bir şey hesab etməzlər. Hər gün gördükləri canlıların qəribə xüsusiyyətlərinin ola biləcəyi ağıllarına belə gəlməz. Halbuki iman edən bir insan üçün Allahın yaratdığı hər canlı qüsursuz bir yaradılışın izlərini daşıyır. Məhz qarışqalar da bu canlılardandır.

İman edən bir insan bağçada gəzərkən gördüyü bir qarışqanı görməzlikdən gələrək keçib getməz. Onun təəccübləndirici xüsusiyyətlərini görərək Allahın qüsursuz yaratma sənətinə şahid olar.

Məsələn, bir qarışqanın yeriyişini araşdırmaq belə düşündürücüdür. Millimetr incəliyindəki ayaqlarını son dərəcə müntəzəm bir şəkildə bir-birinin ardınca hərəkət etdirir, üstəlik hansı ayağını əvvəl, hansı ayağını sonra atacağını da çox yaxşı bilir. Heç özünü itirmədən sürətlə hərəkət edə bilir.

Bu kiçik həşərat öz bədənindən daha böyük qırıntıları götürür. Canla-başla onları yuvasına daşıyar. Öz bədəniylə müqayisədə çox uzun məsafələr qət edər. Ucsuz-bucaqsız bir torpaq səthində ətrafda heç bir yol göstərici olmamasına baxmayaraq yuvasını tapa bilər. Üstəlik bu yuvanın girişinin insanın belə tapmaqda xeyli çətinlik çəkəcəyi kiçiklikdə olmasına baxmayaraq, o heç yanılmaz və harada olursa olsun bu yuvanı tapar.

İnsan bağçada arxa-arxaya düzülmüş, böyük bir səylə yuvalarına yemək daşımağa çalışan qarışqaları gördükdə bu kiçik canlının belə canla-başla çalışması üçün nə kimi bir məqsədi ola bilər deyə düşünər. Sonra da bir qarışqanın yalnız özü üçün deyil, koloniyasındakı digər fərdlər, ana qarışqa və balalar üçün də daim yemək daşıdığını görər. Bu qədər kiçik və inkişaf etmiş bir beyni belə olmayan qarışqanın, çalışqanlığın, nizam-intizamın, fədakarlığın nə olduğunu haradan bildiyi isə üzərində düşünülməsi lazım olan bir mövzudur. Bütün bunları düşündükdən sonra gəldiyi nəticə isə belədir: Qarışqalar da bütün digər canlılar kimi Allahın ilhamı ilə hərəkət edərlər, yalnız Onun əmrinə tabe olarlar.

## Sarmaşıqların "şüurlu" hərəkətlərinin düşündürdükləri

Bağçada gəzən bir mömin Allahın yaratdığı gözəlliklərdən biri olan sarmaşıqlarla qarşılaşdığında, onlar üzərində də düşünər. Çünki, düşünən bir insan üçün ətrafındakı hər varlıqda ibrət götürüləcək dəlillər vardır.

Məsələn, sarmaşıqların özlərini bir budağa və ya hər hansı bir cismə dolamaları insanın dərin düşünüləcək hadisədir. Əgər bu böyümə prosesi bir yerdə yaddaşa verilib, daha sonra sürətli çəkiliş rejimində seyr edilsə, sarmaşığın sanki şüurlu bir varlıq kimi hərəkət etdiyi görülər. Elə bil bir qədər irəlidə bir budaq olduğunu görürmüş kimi o budağa doğru özünü uzadar və sanki kəmənd ataraq özünü budağa bağlayar. Hətta bəzən bir neçə dəfə dolanaraq yerini möhkəmləşdirər. Bu şəkildə sürətlə hərəkət edər, yolu bitdiyində geri qayıdaraq və ya aşağı doğru enərək özünə yeni bir yol tapar. Məhz bunlara şahid olan mömin Allahın yaratdığı bütün canlıları özlərinə məxsus, qüsursuz sistemlərlə yaratdığını bir dəfə daha görər.

Həmçinin bir sarmaşığın hərəkətlərini izləməyə davam etdikcə onun əhəmiyyətli bir xüsusiyyətinə daha şahid olar. Sarmaşığın yanlara qollar çıxararaq, özünü divarın üzərinə möhkəm yapıştırdığını görər. Şüursuz bir bitkinin hazırladığı yapışdırıcı o qədər güclüdür ki, yapışdığı divardan çıxarkən divarın boyasını belə apara bilər.

Belə bir bitkinin varlığı, bunları görüb üzərində düşünən möminə bu bitkini yaratmış olan Allahın qüdrətini bir dəfə daha göstərir.

### Ağacların düşündürdükləri

Ağacları hər gün hər yerdə görərik amma, çox hündür bir ağacın ən uc hissəsindəki budağının ən uc hissəsindəki yarpağına qədər suyun necə çata bildiyini heç düşündünüzmü? Bir məsəl çəkərək bundaki fövqəladəliyi daha yaxşı anlaya bilərik. Binanın zirzəmisində yerləşən anbardakı suyun qidrofor və ya hər hansı güclü bir mühərrik olmadan yuxarı mərtəbələrə qalxması qeyri-mümkündür. Hətta onu birinci mərtəbəyə belə qaldıra bilməzsiniz. Elə isə ağaclarda da qidrofor kimi güclü bir nasos sistemi olmalıdır. Əks təqdirdə ağacın gövdəsinə və budaqlarına su çata bilməyəcəyi üçün ağaclar qısa müddətdə məhv ola bilər.

Ancaq Allah hər bir ağacı özünə lazım olan bütün şeylərlə birlikdə yaratmışdır. Hətta bir çox ağacdakı nasos sistemi insanın öz yaşadığı bina ilə müqayisə edə bilməyəcəyi qədər üstündür. Məhz ətrafındakı hər şeyə "görən bir göz"lə baxan adamın, bu varlıqları gördüyündə düşündüyü mövzulardan biri də budur.

Başqa bir mövzu isə yarpaqlarla əlaqədardır. Gördükləri üzərində düşünən bir insan ağaca baxdığında üzərindəki yarpaqları, alışdığı sadə strukturlar olaraq dəyərləndirməz. Onlarla əlaqədar bir çox insanın ağlına gəlməyən şeylər fikirləşər. Məsələn, yarpaqlar çox incə quruluşlu varlıqlardır. Ancaq buna baxmayaraq qovurucu istilik altında belə qurumazlar. İnsan 40 dərəcə istiliyin altında bir qədər qalsa dərisinin rəngi dəyişər, çox su itirər. Ancaq yarpaqlar incə damarlarından çox az su ala bilmələrinə baxmayaraq günlərlə, hətta aylarla qovurucu istinin altında qovrulmadan yamyaşıl qala bilərlər. Məhz bu Allahın hər şeyi bənzərsiz bir elmlə yaratdığını göstərən bir yaradılış möcüzəsidir. İman edən insan da bu yaradılış möcüzəsi üzərində düşünərək Rəbbimizin böyüklüyünü bir dəfə daha görüb şəninə tariflər deyə bilər.

### Qəzet oxuyarkən və televizora baxarkən...

İnsanlar ümumiyyətlə gün ərzində və ya axşam evlərinə qayıtdıqda qəzet və televiziya xəbərlərini təqib edirlər. Bu xəbərlərdə də vicdanlı bir insan üçün üzərində düşünüb öyüd-nəsihət alacağı, Allahın ayələrini görəcəyi mövzular vardır.

### Tez-tez baş verən hücum, zorakılıq, cinayət hadisələrinin düşündürdükləri

Hər gün qəzetlərin üçüncü səhifələrində və televiziya xəbərlərində bir çox adam öldürmə, yaralama, oğurluq, soyğunçuluq, fırıldaqçılıq, intihar kimi hadisələrin xəbərlərinə rast gəlinər. Bu hadisələrin bu qədər tez-tez yaşanması, insanların böyük bir hissəsinin bu tərz cinayətləri törətməyə bu qədər meyilli olmaları isə insana Allahın dinini yaşamayan insanların çəkdikləri zərərləri göstərər. Bir insanın pul almaq üçün kiçik bir uşağı girov götürə bilməsi, onu çox qorxutması, hətta öldürməsi, silahını yönəldib heç tərəddüd etmədən bir insanın üzünə atəş edə

bilməsi, başqa birinin rüşvət alması, intihar etməsi, fırıldaqçılıq etməsi... Bunların hamısı bu insanların Allahdan qorxmadıqlarının, axirətin varlığına inanmadıqlarının bir göstəricisidir. Allahdan qorxub çəkinən, axirətdə hesab verəcəyini bilən bir insan bunların hər hansı birini əsla edə bilməz. Çünki, bunların hər biri insanı cəhənnəmə aparacaq hərəkətlərdir.

Bir insan "mən ateistəm, Allaha inanmıram amma rüşvət almıram" deyə bilər. Ancaq Allah qorxusu olmayan bir insanın bu sözü qətiyyən etibarlı olmaz. Çünki, olduğu şərtlər dəyişdiyində sözündə durmaması ehtimalı son dərəcə yüksəkdir. Məsələn, bu insanın təcili bir səbəbdən ötrü pul tapması lazım gəlsə, oğurluq edə biləcəyi və ya rüşvət ala biləcəyi bir mühit də yaransa, bu sözündə durmaya bilər və ya belə bir insandan öz canının təhlükə altında olduğu bir vaxtda sözündə durmasını yenə gözləmək olmaz. Bəhs olunan adam çətin bir vəziyyətdə rüşvət almasa belə, başqa bir haram hərəkətə yönələ bilər. Ancaq Allah qorxusuna sahib bir insan üçün şərtlərin və ya məkanın dəyişməsi heç bir şeyi dəyişdirmir. İman edən bir insan hər nə olursa olsun əsla axirətdə hesabını verə bilməyəcəyi bir şeyi etməz.

Bu səbəblə də hər gün qəzetlərdə, televizorlarda, dost məclislərində şikayət edilən, "bu cəmiyyətə nələr oldu belə" dedirdən hadisələrin baş vermə səbəbi dünyanın müxtəlif ölkələrində hakim olan dinsizlikdir. Bütün bu xəbərləri görən mömin bunlara biganə qalmaz, tək həllin insanlara Allah sevgisini və qorxusunu başa salmaq, mənəvi dəyərləri canlandırmaq olduğunu düşünər. Çünki, Allahdan qorxub çəkinən, axirətdə hesab verəcəyini bilən insanlardan ibarət bir cəmiyyətdə bu cür hadisələrin yaşanması qeyri-mümkündür. Belə bir cəmiyyətdə dinclik və güvən ən yüksək səviyyədə yaşanar.

## Səhərə qədər davam edən müzakirə proqramlarının düşündürdükləri

Yenə gördükləri üzərində düşünməyə davam edən insan üçün, televiziyalarda yayımlanan müzakirə proqramları da ibrətamizdir.

Bu müzakirə proqramlarına o günün mövzusuyla olduqca yaxından maraqlanan və o mövzuda ən çox məlumat sahibi olan insanlar dəvət edilir. Bu insanlar bir mövzu barəsində saatlarla danışsalar belə heç biri nə işin içindən çıxa, nə də bir nəticəyə gələ bilər. Halbuki o müzakirə proqramına qoşulanlar bu mövzunu həll edə biləcək səlahiyyətə sahib olan kəslərdir.

Üstəlik bir çox mövzunun həlli əslində son dərəcə aydındır. Ancaq insanların bir qisminin fərdi mənfəətləri, ətraflarının təsiri altında qalmaları, səmimi surətdə bir çıxış yolu axtarmağa çalışmaqdansa öz adlarını ön plana çıxartma səyləri bütün işləri sanki çıxılmaz bir vəziyyətə salar.

Bütün bunlara şahid olan vicdanlı bir insan bu hadisələrin qaynağının da insanların Allahın dinindən uzaq olmaları olduğunu düşünər. Çünki, Allaha iman edən bir insan əsla məsuliyyətsiz, biganə, hadisələrə həll gətirə bilməyən bir

xarakter nümayiş etdirə bilməz. Allahın qarşısına çıxardığı hər hadisədə bir hikmət olduğunu, dünyada hər an sınanmaqda olduğunu, ağlını, gücünü, məlumatını Allahın razı qalacağı şəkildə istifadə etməsinin lazım olduğunu bilir. Həmçinin bu cür proqramları seyr edən bir mömin Allahın bir ayəsini xatırlayır:

**... İnsan isə ən çox mübahisə edəndir. (Kəhf surəsi, 54)**

Bu kimi proqramlarda rast gəlinən mühit insanların bir çoxunda mövcud olan mübahisəçi, daha doğrusu davakar xarakteri ortaya çıxarır. Bu kəslərin böyük bir hissəsinin çox vaxt özlərinə yönəldilən sualı belə başa düşə bilməmələri, yalnız deyəcəkləri öz sözlərində ilişib qalıb tezliklə onu söyləməyə çalışmaları, bir-birlərinin sözünü kəsmələri, səslərini asanlıqla qaldırıb dərhal etidallarını pozaraq əsəbiləşmələri, hətta qarşılarındakı insanları təhqir etməyə başlamaları, bu kəslərin mənfi cəhətlərini büruzə vermələri baxımından əhəmiyyətlidir.

Allahdan qorxan, tamamilə səmimi və dürüst insanların toplandığı bir məclisdə hadisələrin bu cür uzanıb getdiyi və nəticəsiz qaldığı bir mühit qətiyyən meydana gəlməz. Məqsəd Allahın razı qalacağı həlli tapmaq və insanlara ən çox fayda təmin etmək olduğu üçün, ağla və vicdana ən uyğun olan üsul tapılar və heç vaxt itirilmədən tətbiq olunar. Hər kəs vicdanla alınan qərardan razı qalacağı üçün hər hansı bir mübahisə mühiti də meydana gəlməz.

Bir adamın öz etirazını bildirdiyi və bu adamın etirazının haqlı səbəblərə dayandığı, həmçinin də göstərdiyi yol daha doğru olduğu təqdirdə, dərhal onun təklifi etibarlı sayılar. Çünki, Allahdan qorxub çəkinən insanlar, başqaları kimi təkkəbürlənərək söz başa düşməyən bir rəftar nümayiş etdirməzlər. Allahın Quranda bildirdiyi kimi **"...hər bilik sahibindən də üstün bir bilən vardır" (Yusif surəsi, 76)** deyərək, ən doğru olanı tətbiq edərlər.

Əks bir mühit, məsəl üçün bir çox ölkədə rast gəlinən, səhərə qədər davam edən və heç bir nəticə alına bilməyən müzakirələr, insanlara din əxlaqının gətirdiyi gözəl əxlaqın və keyfiyyətli xarakterin yaşanmadığı bir mühitdə nələr ola biləcəyini göstərməsi baxımından düşündürücüdür.

## Dünyanın dörd bir tərəfindəki aclıq və səfalətin düşündürdükləri

Qəzet və televiziya xəbərlərində tez-tez rast gəlinən məsələlərdən biri də insanlar arasında yaşanan ədalətsizlikdir.

Dünyanın bir tərəfində olduqca zəngin və rifah səviyyəsi çox yüksək olan ölkələr, digər bir tərəfində də yeyəcək yeməyi, ən sadə xəstəliyini belə müalicə edəcək dərmanı olmayan, baxımsızlıq ucbatından birbirinin ardınca ölən insanlar vardır. Bu vəziyyətin göstərdiyi ilk həqiqət isə dünyada mövcud olan zülm sistemidir.

Çünki, bir neçə varlı ölkə üçün buradakı insanların xilas edilməsi olduqca asandır. Məsələn, Afrikada aclıqdan ölən insanların yaxınlığında, orada olan almaz mədənləri sayəsində varlanmış və çox yüksək bir mədəniyyətə sahib cəmiyyətlər vardır. Səfalət və aclıq içində yaşayan və ölümə tərk edilən bu insanların yerlərinin dəyişdirilməsi və ya olduqları yerdə onların ehtiyaclarının ödənilməsi son dərəcə asan olduğu halda, neçə illərdir, bu insanlar üçün birdəfəlik çıxış yolu axtarılmır. Halbuki bu insanlara kömək etmək bir neçə adamın edə biləcəyi bir iş deyil. Əsaslı həllərin tapılması üçün, bir çox insanın fədakarlıq etməsi lazımdır. Ancaq dünyada belə bir mövzuyla maraqlanan insanların sayı çox azdır.

Bunlarla yanaşı dünyanın hər yerində trilyonlarla dollar müxtəlif səbəblər ucbatından israf edilir. Bir tərəfdə yeməyinin dadını bəyənmədiyi üçün onu zibil qutusuna atan, digər bir tərəfdə isə yemək tapa bilmədiyi üçün ölən insanların olması, dünyada din əxlaqını yaşamamağın gətirdiyi bir zülm mühitinin mövcud olduğunun çox aydın bir dəlilidir.

Bunları görən adam bu zülmü aradan qaldıracaq tək şeyin Allahın əmr etdiyi əxlaqın yaşanması olduğunu düşünər. Çünki, Allahdan qorxan və daim vicdanı ilə hərəkət edən insanlar belə bir zülmün və haqsızlığın yaşanmasına izin verməzlər. Heç bir göstərişə yol vermədən, lazım gəlsə dünyanın bütün imkanlarını səfərbər etməklə ehtiyac içindəki insanlar üçün sürətli bir şəkildə, qəti və daimi həllər tapıb onlara kömək edərlər. Yoxsullara və ehtiyac içində olanlara da kömək etməyin Allahdan və axirət günündən qorxub çəkinən insanlara aid bir xüsusiyyət olduğu ayələrdə belə izah edilir:

**O kəslər ki, onların mallarında məlum bir haqq vardır yoxsul və ehtiyac sahibi insanlar üçün. O kəslər ki, Haqq-hesab gününü təsdiq edirlər. O kəslər ki, Rəbbinin əzabından qorxurlar. (Məaric surəsi, 24-27)**

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Çünki, biz, kəskin və ağır bir gündən ötrü Allahdan qorxuruq!" (İnsan surəsi, 8-10)**

Yoxsulu doyurmamaq isə Allahdan qorxmayan, dinsiz insanların xüsusiyyətidir. Ayələrdə belə buyurulur:

**(Allah buyurar): "Onu yaxalayıb zəncirləyin! Sonra da qızğın alovların içinə atın! Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun! Çünki o, Böyük Allaha iman gətirmirdi, və heç kəsi kasıbı yedirtməyə rəğbətləndirmirdi. Buna görə də bu gün**

**onun üçün heç bir mehriban dost tapılmaz. Qanlı irindən başqa yeməyi də yoxdur. Onu ancaq günahkarlar yeyər". (Haqqə surəsi, 30-37)**

### Bütün dünyada meydana gələn fəlakətlərin düşündürdükləri

İnsanların televiziya və ya qəzetlərdə çox tez-tez rastlaşdıqları xəbərlərdən biri də fəlakət xəbərləridir. İnsanlar yer üzündə hər an bir fəlakətlə qarşılaşa bilər. Heç gözlənilməyən bir anda güclü bir zəlzələ ola bilər, yanğın meydana gələ bilər, sel basqını ola bilər. Bu xəbərləri görən bir insan, Allahın hər şeyə qadir olduğunu, istədiyi təqdirdə bir şəhərin altını üstünə çevirə biləcəyini düşünər. Bunları düşündüyündə görər ki, insanın Allahdan başqa sığınacağı və kömək istəyəcəyi bir varlıq yoxdur. Ən möhkəm binalar, ən qabaqcıl texnologiya ilə təchiz edilmiş şəhərlər belə Allahın əzabına davam gətirə bilməz və bir anda yerlə-yeksan ola bilərlər.

Həmçinin bu fəlakət xəbərlərini eşidən və ya oxuyan adam, Allahın bu şəhərə fəlakəti bir hikmət üzrə verdiyini də düşünər. Allah Quranda azğınlıq edən qövmlərə öyüd-nəsihət qəbul edib düşünmələri və ya etdiklərinin qarşılığını almaları üçün dünya həyatında əzab verdiyini bildirir. Deməli, bu cəmiyyət də Allahın məmnun olmayacağı bir əxlaqı yaşadıqları ehtimalından ötrü, Allahın əzabına məruz qalmış ola bilər və ya Allah bu insanları dünyada bəzi çətinliklərlə sınaya da bilər.

Bu ehtimalları düşünən insan, bütün bunların öz başına da gəlməsindən qorxar və davranışları üçün Allahdan bağışlanma diləyər.

Allah istəmədiyi təqdirdə heç bir insan və ya heç bir qövm başına gələcək əzabın qarşısını ala bilməz. Bu, istər dünyanın ən varlı və ən güclü ölkəsi olsun, istərsə də coğrafi baxımdan tamamilə təhlükəsiz bir yer olsun. Allah heç bir ölkənin öz başına gələcək fəlakətin qarşısını ala bilməyəcəyini belə bildirir:

**Məgər o ölkələrin əhalisi əzabımızın onlara gecə vaxtı, onlar yatarkən gəlməyəcəyindən əminmi oldular? Ya da o ölkələrin əhalisi əzabımızın onlara səhər-səhər, onlar əylənərkən gəlməyəcəyindən əminmi oldular? Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər. (Bütün bunlar) yer üzünün keçmiş sakinlərindən sonra ona varis olanları haqqa yönəltməyə kifayət etməzmi? Biz istəsəydik, onları da günahları üzündən müsibətə düçar edər, qəlblərinə möhür vurardıq və onlar da eşitməzdilər. (Əraf surəsi, 97-100)**

Xəbərlərdə tez-tez rast gəlinən başqa bir mövzu da iqtisadiyyatdakı çöküşlərdir. Xüsusilə də faizlə əlaqədar hər gün bir çox mənfi xəbər çıxar. Sələmçiliyin qarşısının alına bilmədiyi, bütün iqtisadiyyata mənfi təsir etdiyini ifadə

edən xəbərləri oxuyan bir adam, haram olan bir şeyin bu qədər yayılması nəticəsində Allahın insanların qazancını azaldaraq cavab verdiyini düşünər.

Quranın **"Allah sələmi məhv edər, sədəqələri isə artırar. Allah, günahkar kafirlərin heç birini sevməz" (Bəqərə surəsi, 276)** ayəsində bildirildiyi kimi, Allah faizin gətirəcəyi gəliri yox edə, bərəkətini də azalda bilər. Yenə bu həqiqət başqa bir ayədə belə bildirilmişdir:

**İnsanların var-dövləti sayəsində artırmaq məqsədilə sələmlə verdiyiniz mal Allah yanında artmaz. Allahın Üzünü diləyərək verdiyiniz zəkata gəlincə, bilin ki, bunu edənlər mallarının bərəkətini qat-qat artıranlardır. (Rum surəsi, 39)**

Məhz düşünən bir insan üçün faizlə əlaqədar xəbərlər də, Allahın ayələrinin insanlar üzərində təcəlli etməsinin bariz bir nümunəsidir.

## Gözəl məkanlar üzərində düşünmək

Əlbəttə ki, televiziya proqramlarında, qəzet və jurnallarda Allahın yaratdığı gözəllikləri görmək və bunlar üzərində düşünmək də mümkündür. Bunlarda olan gözəl bir mənzərəyə, gözəl bir evə, gözəl bir bağçaya və ya bir dəniz sahilinə baxmaq və ya bu yerlərdə olmaq hər insanın məmnun olduğu şeylərdir. Bu görüntülər hər şeydən əvvəl insana Cənnəti xatırladır. İnanan bir insan dünyada belə bu qədər böyük nemətlər verən, bu qədər möhtəşəm gözəlliklər göstərən Allahın, əlbəttə ki cənnətdə müqayisə edilə bilməyəcək qədər gözəl məkanlar yaradacağını bir daha xatırlayar.

Lakin bunları görən adamın ağlına bunlar da gələr: Dünyada yaradılan hər gözəlliyin, dünyanın bir imtahan yeri olmasından ötrü hər cür qüsuru və çatışmazlığı vardır. Məsələn, televiziyada görüntüləri görülən bir istirahət düşərgəsində bir müddət qalanda bu əskiklikləri görə bilər. Havasının həddindən artıq rütubətli olması, dənizin suyunun insanı narahat edəcək qədər duzlu olması, bürkülü bir hava və milçəklər bunlardan yalnızca bir neçəsidir. Günəş altında yanmaq və bu səbəbdən də ağrı hissi keçirmək, səyahət agentliyinin kompaniyasındakı ləngimələr, eyni məkanı paylaşan insanların dözülməz vəziyyətdə olması kimi dünyaya aid bir çox çətinlik və arzuolunmaz vəziyyət meydana gələ bilər.

Cənnətdə isə bu gözəlliklərin əslləri olacaq, insanı narahat edən zərrə qədər bir şey olmayacaq və ya tək bir xoşagəlməz söhbət belə edilməyəcək. İnsan dünya həyatında istənilən gözəlliklə qarşılaşdıqda cənnətə həsrət duyar. Dünyada Uca Allahın ona verdiyi nemətlər üçün daim ona şükr edər və bunların hamısının Allahın rəhm edərək verdiyi nemətlər olduğunu düşünməklə bunlardan zövq alar. Amma

əsllərinin cənnətdə olduğunu bildiyi üçün, dünya gözəlliklərinə aludə olaraq axirəti də unutmaz. Əbədi gözəlliklərə sahib ola biləcəyi, Allahın cənnətinə girməyi qazana biləcəyi bir həyat yaşayar.

**Elmi bir jurnalda maddənin təməl parçasının atom olduğu məlumatını oxumaq nələr düşündürər?**

İnsan bildiyi şeylər üzərində düşünmədiyi müddətcə incəlikləri qavraya bilməz, nə qədər fövqəladə bir mühitdə yaşadığını dərk edə bilməz. Buna görə də iman edən hər insan heç dayanmadan Allahın yaratdığı varlıqlar və hadisələr üzərində düşünər. Bunlar bəzən bir çox insanın bildiyi mövzular da ola bilər, amma o bu mövzulardan hər kəsdən daha fərqli nəticələr çıxara bilər.

Məsələn, kainatdakı canlı və cansız hər bir varlığın təməl maddəsinin atomlar olduğu əsasən insanların bildiyi bir məlumatdır. Yəni bir çox insan, əlindəki kitabın, kreslonun, içdiyi suyun və ətrafında gördüyü hər şeyin atomlardan meydana gəldiyini bilir. Amma bundan artığını düşünərək, Allahın üstün qüdrətinə şahid olanlar ancaq vicdanlı insanlardır. Belə bir adam bu mövzuyla əlaqəli bir xəbər gördüyündə bunları düşünər: Atomlar cansız varlıqlardır. Bəs atomlar kimi cansız maddələr bir yerə gəlib görə bilən, eşidən, eşitdiklərini şərh edən, dinlədiyi musiqidən zövq ala bilən, düşünə bilən, qərar verə bilən, sevinə bilən və ya kədərlənən insanı necə meydana gətirmişlər? İnsan özünü atomlardan ibarət varlıqlardan tamamilə fərqləndirən bu xüsusiyyətləri necə əldə etmişdir?

Əlbəttə ki, insana bütün bu insani xüsusiyyətlərini cansız və şüursuz atomlar verə bilməz. İnsanı bu xüsusiyyətlərə sahib bir ruh ilə yaradanın Allah olduğu açıq-aydın bir həqiqətdir və bundan sonra insanın ağlına Allahın bir ayəsi gəlir. Ayədə belə buyurulur:

**Hansı ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş, sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! (Səcdə surəsi, 7-9)**

**İnsanın dərin düşünərək çatdığı bəzi həqiqətlər...**

Hər şeyin insan üçün yaradılmış olduğunu heç düşündünüzmü?

Allaha iman edən bir adam kainatda mövcud olan canlı-cansız bütün varlıqları və sistemləri diqqətli bir gözlə araşdırdığında, bunların hamısının insan üçün yaradıldığını açıq şəkildə görər. Heç bir şeyin təsadüfən əmələ gəlmədiyini, Allahın hər şeyi insanın yaşaması üçün ən uyğun şəkildə yaratdığını anlayar.

Məsələn, insan hər an çox rahat nəfəs ala bilir. Tənəffüs etdiyi hava nə burun boşluğunu yandırar, nə başı hərlənər, nə də baş ağrısı verər. Çünki, havadakı qazların miqdarı insan bədəni üçün ən uyğun normada tənzimlənmişdir. Bunları düşünən insanın ağlına çox əhəmiyyətli bir məqam daha gəlir: Əgər atmosferdəki oksigen hazırkı miqdarından bir qədər çox və ya bir qədər az olsaydı, hər iki halda da canlıların məhvinə səbəb olardı. Bununla da bəzən havasız bir yerdə qaldığında nəfəs almaqda nə qədər çətinlik çəkdiyini düşünər. İnanclı bir insan bu mövzu üzərində düşünməyə davam etdikcə dayanmadan Rəbbimizə şükr edər. Çünki, yer kürəsi atmosferinin də bir çox planet kimi çətin nəfəs alınacaq şəkildə ola biləcəyini, ancaq belə olmadığını və yer kürəsi atmosferinin milyardlarla insanın rahatlıqla nəfəs ala biləcəyi şəkildə, son dərəcə qüsursuz bir tarazlıq və nizam içində yaradıldığını görər.

Yenə üzərində yaşadığı planet haqqında düşünməyə davam edən adam, Allahın yaratmış olduğu suyun insan həyatında nə qədər böyük bir əhəmiyyət kəsb etdiyini düşünər. Ağlına bunlar gələr: İnsanlar suyun dəyərini adətən uzun bir müddət susuz qalanda başa düşər. Halbuki su, həyatımızın hər anında ehtiyac duyduğumuz bir maddədir. Məsələn, hüceyrələrimizin, bədənimizin hər nöqtəsinə çatan qanımızın böyük bir hissəsi sudan ibarətdir. Əgər belə olmasaydı, qanın axım sürəti azalacaq, damarlarımızda hərəkəti çox çətinləşəcəkdi. Suyun axıcılıq qabiliyyəti yalnız bizim bədənimiz üçün deyil, bitkilər üçün də son dərəcə əhəmiyyətlidir. Bu sayədə su yarpaqların incə damarlarından keçərək yarpağın ən uc hissəsinə qədər çata bilər.

Dənizlərdəki böyük su kütlələri isə dünyamızın yaşana biləcək bir planet olmasını təmin edir. Əgər su səthinin sahəsi qurudan çox az olsaydı, onda hər yer səhraya çevrilər və yaşamaq qeyri-mümkün olardı.

Bunları düşünən vicdanlı bir adam dünyada bu qədər qüsursuz bir tarazlığın təmin edilməsinin, əlbəttə ki, təsadüf əsəri olmadığına qəti surətdə inanar. Bütün bunları görmək və düşünmək ona üstün güc sahibi olan Allahın hər şeyi bir məqsədlə yaratdığını göstərər.

Üstəlik bu mövzuda düşündüyü nümunələrin son dərəcə məhdud olduğu da ağlına gələr. Belə ki, dünyadakı tarazlıqlarla əlaqəli nümunələri saymaqla bitirmək mümkün deyil. Ancaq düşünən insan kainatın hər küncündə mövcud olan nizamı, qüsursuzluğu və tarazlığı açıq şəkildə görə bilər və bunun nəticəsində Allahın hər şeyi insan üçün yaratdığı həqiqətinə gələr. Allah bu həqiqəti Quranda belə bildirir:

**Göylərdə və yerdə olanların hamısını O, sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən insanlar üçün dəlillər vardır.. (Casiyə surəsi, 13)**

## Sonsuzluğun düşündürdükləri

Sonsuzluq anlayışını demək olar ki, hər kəs bilir, ancaq siz nə vaxtsa sonsuzluq barəsində düşünmüşdünüzmü? Allaha iman edən bir insanın düşündüyü mövzulardan biri də budur.

Allahın cənnət və cəhənnəm həyatını əbədi surətdə yaratmış olması hər insanın, üzərində düşünməli çox əhəmiyyətli bir mövzudur. Bunu düşünən adamın ağlına bunlar gəlir: Cənnətin əbədi olması, ölümdən sonrakı həyatda verilmiş ən böyük nemət və mükafatlardan biridir. Çünki, cənnətdəki ehtişamlı həyat, əsla bitməyəcək. İnsan dünyada ən çox 100 il qədər yaşaya bilər. Amma cənnətdəki həyat kvadrilyon vurulsun kvadrilyon il ərzində əsla bitmədən davam edəcək.

Bunları xatırlayan adamın ağlına insanların sonsuzluğu qavramasının son dərəcə çətin olduğu da gəlir. Bu həqiqət mövzuya əlaqəli olan belə bir nümunə izah edilə bilər: Yüz trilyon insan olsa, bunlar gecə-gündüz heç dayanmadan yüz trilyonu yüz trilyona vursalar, yüz trilyon il də ömürləri olsa və ömürləri boyunca bu işlə məşğul olsalar, aldıqları rəqəm yenə də sonsuz həyatda keçiriləcək illərin sayının yanında "sıfır" kimi qalar.

Məhz bunları düşünən insan bu nəticəyə gələr: Allah elə böyük bir elmə malikdir ki, insana görə "sonsuz" olan bir şey Onun qatında artıq bitmişdir. Zamanın yaradıldığı andan etibarən sonsuzluq anına qədər baş verəcək hər hadisə, hər düşüncə, baş vermə zamanları və formaları ilə Onun elmiylə təyin olunmuş və bitmiş vəziyyətdədir.

İnsan eynilə cəhənnəmin də inkarçılar üçün sonsuza qədər qalınacaq bir məkan olduğunu düşünməlidir. Cəhənnəmdə cürbəcür əzablar, işgəncələr və çətin bir həyat vardır. Cəhənnəmdəki inkarçılar fasiləsiz surətdə fiziki və mənəvi işgəncəyə məruz qalarlar. Bu işgəncələrin arxası sonsuza qədər heç kəsilməz, heç bir zaman yuxu və ya istirahət deyə bir şey olmaz. Əgər cəhənnəmdəki həyatın bir sonu olsaydı, hətta bu kvadrilyonlarla ildən sonra belə olsaydı, cəhənnəm əhli üçün bir ümid mənbəyi olardı. Ancaq dünya həyatında işlədikləri günahların qarşılığı sonsuz bir əzabdır:

**Ayələrimizi yalan sayıb onlara təkəbbürlüklə yanaşanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar. (Əraf surəsi, 36)**

Bu səbəblə də sonsuzluğu düşünərək qavramağa çalışmaq hər insan üçün son dərəcə əhəmiyyətlidir. Bir insanın axirət həyatı üçün göstərdiyi səyini artırar, qorxusunu və ümidini gücləndirər. Sonsuz əzabdan xeyli qorxub çəkinərkən, sonsuz cənnətə qovuşmağın ümidini daşıyar.

### Yuxular üzərində nələr düşünülər?

Düşünən insan üçün yuxuda əhəmiyyətli hikmətlər vardır. Belə bir insan yatarkən gördüyü yuxuların nə qədər "həqiqətmiş kimi" olduğunu, hətta oyaq vaxtından elə də bir fərqi olmadığını düşünər. Məsələn, gecə bədəninin yatağında yatmasına baxmayaraq, ezamiyyətə çıxmış, insanlarla tanış olmuş, musiqi dinləyərək yemək yemişdir. Hətta yeməyin dadını hiss etmiş, musiqi çalınanda rəqs etmiş, yaşanan hadisələrdən ötrü həyəcanlanmış, sevinib kədərlənmiş, qorxmuş, yorulmuş, hətta o günə qədər heç istifadə etmədiyi və necə istifadə ediləcəyini belə bilmədiyi bir aləti istifadə etmiş ola bilər.

Bədənin bir yataqda sabit vəziyyətdə dayanmasına və gözlərinin yumulu olmasına baxmayaraq, daim olduğu məkandan fərqli görüntülər görmüşdür. Deməli, görən gözləri deyil. Yatdığı otaq bomboş olmasına baxmayaraq, səslər eşitmişdir. Deməli, duyan qulaqları deyil. Hər şey beyninin içində baş vermişdir. Ancaq sanki hər görüntünün əsli varmış kimi, hər şey çox realdır. Bəs çöldə heç birinin əslinin olmamasına baxmayaraq, bu qədər real görüntüləri insanın beynində meydana gətirən nədir? İnsan yatarkən bunları şüurlu surətdə və istəyərək ağlında quraşdıra bilməz. Beynin isə öz-özünə belə görüntülər meydana gətirməsi qeyri-mümkündür. Beyin zülal molekullarından meydana gəlmiş bir ət parçasıdır. Belə bir maddənin öz-özlüyündə bir görüntü meydana gətirdiyini, hətta o günə qədər heç görülməyən insan üzlərini, məkanları, səsləri meydana gətirdiyini iddia etmək son dərəcə məntiqsiz olar. Elə isə yatarkən yuxudakı görüntüləri göstərən kimdir? Bunları düşünən insan açıq bir həqiqəti bir dəfə daha görər: İnsanları yatırdan, yuxu əsnasında ruhlarını çəkib alan, oyandıqdan sonra da geri qaytaran və yuxuları göstərən Allahdır.

Yuxuları Allahın göstərdiyini bilən insan, yuxunun hikmətlərini və yaradılış məqsədini də düşünər. Yuxu əsnasında eynilə oyanıq olduğu vaxtdakı kimi yaşadığı hadisələrdən və kəslərin varlığından əmindir. Hamısının həqiqətən mövcud olduğunu, yuxusunda gördüyü həyatın fasiləsiz və daimi olduğunu zənn edər. Hətta biri yanına gələrək "həmin anda yuxudan, oyan" desə ona inanmaz. Bunları dərk edən insan isə belə düşünər: "Bu dünya həyatının da müvəqqəti və yuxu bənzəri bir həyat olmadığını kim söyləyə bilər? **Eynilə yuxudan oyanan kimi bir gün bu dünya həyatından da oyanacaq və tam fərqli görüntüləri, məsələn, axirət görüntülərini görəcəyəm...".**

# QURAN AYƏLƏRİ ÜZƏRİNDƏ DÜŞÜNMƏK

Müqəddəs kitabımız Quran Allahın bütün insanlara göndərdiyi axırıncı kitabdır. Dünyada yaşayan hər insan Quranı öyrənmək və onda bildirilən əmrlərə əməl etməklə məsuldur. Ancaq insanların böyük bir hissəsinin, Quranı müqəddəs bir kitab kimi qəbul etməsinə baxmayaraq, onu öyrənməz və Allahın Qurandakı əmrlərinə əməl etməzlər. Bu, Quran barəsində heç düşünməmiş olmalarının, Quranı qulaqdan dolma məlumatlarla tanımalarının bir nəticəsidir. Düşünən bir insan üçün Quranın əhəmiyyəti və insan həyatındakı yeri isə çox böyükdür.

Hər şeydən əvvəl "düşünən" bir insan, özünü və içində olduğu kainatı yoxdan yaradan, özünə hələ heç bir şey deyilkən həyat verən, saysız nemət və gözəllik bəxş edən yaradıcımızı tanımaq və Onun hansı rəftarlardan məmnun olacağını öyrənmək istəyər. Allahın elçisi vasitəsiylə göndərdiyi Quran, insanın bu suallarına cavab verən bir rəhbərdir. Bu səbəblə də insan Allahın insanlara rəhbər olaraq endirdiyi, doğru ilə yanlışı bir-birindən ayıran kitabını çox yaxşı bilməli, hər bir ayəsinin üzərində düşünərək, Allahın əmrlərini ən doğru və ən gözəl şəkildə tətbiq etməlidir. Allah Quranın insanlara nə məqsədlə göndərildiyini belə xəbər verir:

**Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.. (Sad surəsi, 29)**

**Həqiqət (budur ki), o (Quran,) əlbəttə, bir öyüddür. Artıq kim istəsə, öyüd alıb düşünər. (Muddəssir surəsi, 54-55)**

Bir çox insan Quranı oxuyar, ancaq əhəmiyyətli olan Allahın ayələrində də bildirdiyi kimi oxunan hər Quran ayəsinin üzərində düşünmək, o ayədən bir öyüd-nəsihət qəbul etmək və davranışlarını bu nəsihətlər əsasında düzəltməkdir. Məsələn, Quranda xəbər verilən, **"sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir..." (İnşirah surəsi, 5-6)** ayələrini oxuyan bir insan, bu ayə üzərində düşünər. Allahın hər çətinliyin ardından bir asanlıq yaradacağını, elə isə hər hansı bir çətinliklə qarşılaşdığında tək edəcəyi şeyin Allaha təvəkkül edərək, ardından gələcək asanlığı gözləmək olduğunu anlayar. Allahın belə bir vəd verdiyi halda, çətinlik anlarında təşvişə və ya ümidsizliyə qapılmağın imani zəifliyin bir əlaməti olduğunu görər və bu ayəni oxuyub üzərində düşündükdən sonra, qalan həyatında ayədə bildirildiyi şəkildə hərəkət edər. Allah bizə Quranda keçmişdə yaşamış peyğəmbərlərin və elçilərin həyatlarından bəzi məlumatları da çatdırır ki, bu insanlar Allahın razı olacağı bir insanın davranışlarının, danışıqlarının və həyatının necə olduğunu görsünlər və nümunə götürsünlər. Allah, elçilərin həyatı ilə əlaqəli

qissələrin üzərində düşünülməsinin və insanların bu qissələrdən öyüd götürməsinin lazım olduğunu bəzi ayələrdə belə bildirir:

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Yusif surəsi, 111)**

**Musanın əhvalatında da ibrət (düşündürücü dəlillər) vardır. O zaman Biz onu Fironun yanına aydın bir dəlillə göndərmişdik. (Zəriyət surəsi, 38)**

**Biz onu və gəmidə olanları xilas edib, bunu bir möcüzə (ibrət götürüləcək hadisə) etdik. (Ənkəbut surəsi, 15)**

Quranda keçmiş qövmlərin bəzi xüsusiyyətlərindən, sahib olduqları əxlaqdan və başlarına gələn fəlakətlərdən də bəhs edilir. Bu mövzularla əlaqəli ayələri, yalnız keçmiş cəmiyyətlərin başlarına gələnlərin çatdırıldığı tarixi hadisələr kimi oxumaq böyük bir səhv olar. Çünki, Allah bizə digər bütün ayələr kimi keçmiş qövmlərdən bəhs edilən ayələri də üzərində düşünməyimiz və bu qövmlərin başlarına gələnlərdən ibrət götürərək davranışlarımızı düzəltməyimiz üçün bildirmişdir. Ayələrdə belə buyurulur:

**And olsun, Biz sizin kimiləri məhv etdik. Lakin ibrət alan vardırmı? (Qəmər surəsi, 51)**

**Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq. O gəmi Gözlərimiz önündə üzüb gedirdi. (Bu özü və gətirdikləri) İnkar edilmiş birinə (Nuha) verilmiş bir mükafat idi. Biz onu (həmin hadisəni) nəsillər üçün dəlil olaraq saxladıq. Lakin ibrət alan vardırmı? Elə isə Mənim əzabım və qorxutmağım necəymiş? Andolsun Biz Quranı yada salmaq (öyüd alıb düşünmək) üçün asanlaşdırdıq. Amma heç bir yada salan vardırmı? (Qəmər surəsi, 13-17)**

Allah Quranı bütün insanlara bir rəhbər olaraq endirmişdir. Bu səbəbdən də Quranın hər ayəsi üzərində düşünmək və hər bir ayədən bir ibrət və öyüd alaraq, Qurana görə yaşamaq, Allahın razılığını, rəhmətini və cənnətini qazanmağın yeganə yoludur.

## Allah Quranda insanları nələri düşünməyə çağırır?

Biz onları aydın dəlillər və kitablarla göndərdik. Sənə də Zikri ona görə nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və onlar da düşünələr. (Nəhl surəsi, 44)

Nəhl surəsindəki bu ayədə olduğu kimi, Allah bir çox ayəsində insanları düşünməyə çağırır. Allahın, düşünməyimizi bildirdiyi mövzular üzərində düşünmək, Rəbbimizin yaratdığı hikmət və yaradılış möcüzələrini görmək bir ibadətdir. Üzərində düşünülən hər mövzu Allahın sonsuz gücünü, ağlını, elmini, sənətini və digər sifətlərini öyrənib qavramağımıza vəsilə olar.

## Allah insanı öz yaradılışı üzərində düşünməyə çağırır

İnsan soruşar: "Doğrudanmı mən öldükdən sonra qəbirdən diri çıxardılacağam?" Məgər insan ilk əvvəl onu heç bir şey deyilkən yaratdığımızı düşünmürmü?. (Məryəm surəsi, 66-67)

## Allah insanı göylərin və yerin yaradılışı üzərində düşünməyə çağırır

Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləyi əsdirməsində və göylə yer arasında ram edilmiş buludlarda, düşünən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 164)

## Allah insanı dünya həyatının müvəqqəti olduğunu düşünməyə çağırır

Dünya həyatının məsəli göydən endirdiyimiz suyun məsəlinə bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və onun sakinləri ona (onun məhsulunu yığmağa) qadir olduqlarını güman etdikləri zaman gecə yaxud gündüz əmrimiz yerə yetişər. Biz onu, elə bir biçilmiş sahəyə döndərərik ki, sanki dünən heç bol məhsulu olmamışdı. Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik. (Yunis surəsi, 24)

Məgər sizlərdən biri istəyərmi ki, onun xurma ağaclarından və üzümlüklərdən ibarət, ağacları altından çaylar axan və içində də onun üçün hər cür məhsullar olan bir bağı olsun, sonra da ona qocalıq üz verdiyi zaman, özünün də o bağa möhtac olan zəif və kiçik uşaqları olduğu bir halda bu bağa odlu bir qasırğa düşüb onu yandırsın? Allah ayələri sizə belə bəyan edir ki, bəlkə düşünəsiniz. (Bəqərə surəsi, 266)

Allah insanı sahib olduğu nemətlər üzərində düşünməyə çağırır

Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün məhsullardan cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır.

Yer üzündə bir-birinə yaxın qonşu qitələr vardır. Üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları da vardır. Onlar eyni su ilə suvarılır. Lakin (məhsuldarlığına və ləzzətinə görə) bəzisini digərindən üstün edirik. Doğrudan da, bunda ağlını işlədən adamlar üçün dəlillər vardır. (Rad surəsi, 3-4)

Allah insanı bütün kainatın insan üçün yaradıldığını düşünməyə çağırır

Göylərdə və yerdə olanların hamısını O, sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Casiyə surəsi, 13)

Allah onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və başqa meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda düşünə bilən adamlar üçün dəlillər vardır. O, gecəni və gündüzü, günəşi və ayı sizə xidmət etməyə yönəltdi. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Sözsüz ki, bunlarda ağlını işlədə bilən insanlar üçün əlamətlər vardır. Yer üzündə sizin üçün yaratdığı müxtəlif rəngli şeyləri də sizə ram etdi. Şübhəsiz ki, bunda öyüd alıb düşünən insanlar üçün dəlillər vardır. O, dənizi də sizin xidmətinizə verdi ki, ondan yemək üçün təzə ət və taxmaq üçün bəzək şeyləri əldə edəsiniz. Sən gəmilərin dənizi yara-yara üzdüyünü görürsən. Bütün bunlar Allahın lütfündən sizə nəsib olanları axtarıb tapmağınız və şükür etməyiniz üçündür. O, sizi silkələməsin deyə, yer üzündə möhkəm dağlar yaratdı, həmçinin çaylar və yollar da (yaratdı). Ola bilsin ki, doğru yolu taparsınız. Əlamətlər də yaratdı. İnsanlar ulduzlar vasitəsilə də getdikləri yolu müəyyənləşdirirlər. Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Artıq öyüd alıb düşünməyəcəksinizmi? (Nəhl surəsi, 11-17)

Allah insanları özləri barəsində düşünməyə çağırır

Məgər onlar özləri barəsində düşünmürlərmi?... (Rum surəsi, 8)

Allah insanı gözəl əxlaq üzərində düşünməyə çağırır

Yetim həddi-buluğa çatana qədər, -xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla,- onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə (əmr) etmişdir ki, bəlkə, öyüd alıb düşünəsiniz. (Ənam surəsi, 152)

Həqiqətən, Allah qohumlara qarşı ədalətli olmağı, onlara yaxşılıq etməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və zülm etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə öyüd alıb düşünəsiniz. (Nəhl surəsi, 90)

Ey iman gətirənlər! Özgə evlərə yaxınlıq qurub (icazə almadan) və onların sakinlərinə salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, öyüd alıb düşünəsiniz. (Nur surəsi, 27)

Allah insanı axirəti, qiyamət və haqq-hesab gününü düşünməyə çağırır

Hər kəsin etdiyi yaxşı əməlləri qarşısında hazır görəcəyi və özü ilə pis əməllərinin arasında çox böyük məsafə olmasını arzulayacağı o günü düşünün. Allah sizi Özündən çəkindirir. Allah qullarına Şəfqətlidir”. (Al-i İmran surəsi, 30)

Qüdrət və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da yada sal! Həqiqətən, Biz onları, sidq ürəklə (axirətdəki əsl) yurdu düşünüb yada salan ixlas sahibləri etdik. (Sad surəsi, 45-46)

Məgər onlar o Saatın qəfildən onlara gəlməsindən başqa bir şeymi gözləyirlər? Artıq onun əlamətləri gəlmişdir. O Saat onlara gəlib yetişdiyi zaman öyüd alıb düşünmələri nəyə yarayar? (Məhəmməd surəsi, 18)

Allah insanı, yaratdığı canlılar üzərində düşünməyə çağırır

Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)

Allah insanı qəflətən gələ biləcək əzabları düşünməyə çağırır

De: "Heç düşündünüzmü? Əgər sizə Allahın əzabı gəlsə və ya həmin Saat sizi haqlayarsa, Allahdan başqasınımı çağıracaqsınız?". Əgər doğru danışanlarsınızsa, çağırın görək. (Ənam surəsi, 40)

De: "Heç düşündünüzmü?. Əgər Allah sizin eşitmə və görmə qabiliyyətinizi əlinizdən alsa, qəlblərinizə möhür vursa, Allahdan başqa hansı məbud onları sizə qaytara bilər?" Bax gör, Biz ayələri necə müxtəlif cür izah edirik, sonra onlar yenə üz çevirib əngəl törədirlər. (Ənam surəsi, 46)

De: "Heç düşündünüzmü?. Əgər Allahın əzabı sizə qəflətən və ya açıq-açığına gəlsə, zalım qövmdən başqası həlak edilərmi?" (Ənam surəsi, 47)

De: "Heç düşündünüzmü?. Əgər Onun əzabı sizə gecə yaxud gündüz gələcəksə, onda günahkarlar bunlardan hansını tələsik istəyəcəklər? (Yunis surəsi, 50)

Məgər onlar hər il bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi ki, yenə də tövbə etmir və öyüd alıb (dərs çıxarıb) düşünmürlər. (Tövbə surəsi, 126)

Biz əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanlar üçün bəsirətlər, doğru yol göstəricisi və rəhmət olaraq Kitab verdik ki, bəlkə, öyüd alıb düşünələr. (Qəsas surəsi, 43)

Biz neçə-neçə həmtaylarınızı məhv etmişik. Amma heç öyüd alıb düşünən vardırmı? (Qəmər surəsi, 51)

Biz Firon xalqını quraqlıq illərinə və məhsul qıtlığına məruz qoyduq ki, bəlkə öyüd alıb düşünələr. (Əraf surəsi, 130)

Allah insanı Quran üzərində düşünməyə çağırır

Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)

Məgər onlar bu Söz (Quran) haqqında düşünmürlərmi? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi? (Muminun surəsi, 68)

Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik. (Sad surəsi, 29)

Biz Quranı sənin dilində asanlaşdırdıq ki, onlar öyüd alıb düşünsünlər. (Duxan surəsi, 58)

Həqiqət budur ki, O (Quran), əlbəttə, bir nəsihətdir. Artıq istəyən öyüd alıb düşünər. (Muddəssir surəsi, 54-55)

Beləliklə, Biz onu ərəbcə Quran olaraq nazil etdik və orada təhdidləri dönə-dönə açıqladıq ki, bəlkə, qorxub çəkinələr və ya onlar üçün bir düşünmə qabiliyyəti meydana gətirər. (Taha surəsi, 113)

Allahın elçiləri düşüncəsiz qövmlərini düşünməyə çağırıblar

De: “Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram”. De: “Məgər korla görən eyni ola bilərmi? Məgər düşünmürsünüz?”(Ənam surəsi, 50)

Qövmü onunla höcətləşdi. O dedi: “Allah məni doğru yola yönəltdiyi halda, siz Onun barəsində mənimlə höcətləşirsiniz? Rəbbimin istədiyi şeylərdən başqa mən, sizin Ona şərik qoşduqlarınızdan qorxmuram. Rəbbim elmi ilə hər şeyi əhatə etmişdir. Yenə də öyüd alıb düşünməyəcəksinizmi?. (Ənam surəsi, 80)

Allah insanı şeytanın təsirinə müqavimət göstərmək üçün düşünməyə çağırır

Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. (Allahdan) Qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (əvvəlcə) yaxşı şəkildə düşünərlər (Allahı yada salarlar) və sonra dərhal gerçəyi görərlər. (Şeytanın) qardaşları isə onları azğınlığa aparresults, sonra da onlardan əl çəkməzlər. (Əraf surəsi, 200-202)

Allah təbliğ edilən adamı düşünməyə yönəltməyi tövsiyə edər

Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin. Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd alıb düşünər və ya qorxar”. (Taha surəsi, 42-44)

Allah insanı ölüm və yuxu üzərində düşünməyə çağırır

Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda düşünən insanlar üçün dəlillər vardır. (Zumər surəsi, 42)

# NƏTİCƏ

Bu kitabın məqsədi "düşünməyə dəvət"dir. Bir insana həqiqətlər bir çox formada izah edilə bilər; bütün incəliklər, bütün dəlillər və hər cür imkandan istifadə edilərək göstərilə bilər. Lakin insan bütün bu həqiqətləri öz-özünə, səmimi və dürüst şəkildə, həqiqəti qavraya bilmək məqsədiylə düşünməzsə, bütün bu səylərin heç bir təsiri olmaz. Bu səbəblə də Allahın elçiləri qövmlərinə təbliğ etdikdə onlara həqiqətləri bütün açıqlığı ilə izah etmişlər və sonra da onları düşünməyə çağırmışlar.

Düşünən insan Allahın yaratma sirlərini, dünya həyatının həqiqətini, Cənnət və Cəhənnəmin varlığını, hadisələrin iç üzünü qavrayar. Allahın razı qaldığı bir insan olmağın əhəmiyyətini daha yaxşı başa düşər, din əxlaqını lazım olduğu kimi yaşayar, gördüyü hər şeydə Allahın sifətlərini tanıyar, insanların böyük bir hissəsinin deyil, Allahın əmr etdiyi şəkildə düşünməyə başlayar. Bunun nəticəsi olaraq da həm gözəlliklərdən hər kəsdən daha çox zövq alar, həm də gərəksiz xülyalara, dünyəvi ehtiraslara qapılaraq özünü çətinliyə salmaz.

Bunlar düşünən bir insanın dünyada qazanacağı gözəlliklərdən yalnızca bir neçəsidir. Düşünərək daima haqqı görən insanın axirətdəki qazancı isə Rəbbimizin sevgisi, razılığı, rəhməti və cənnətidir. Dünya həyatında düşünərək həqiqətləri görməkdən qaçan insanların isə düşünəcəkləri, həm də "dərindən və yaxşı şəkildə" düşünəcəkləri və həqiqətləri bütün açıqlığı ilə görəcəkləri bir gün mütləq gələcəkdir. Ancaq həmin gün düşünmələri onlara heç bir fayda verməyəcək, hətta onları çox kədərləndirəcəkdir. Allah bu insanların nə vaxt düşünəcəklərini Quranda belə bildirir: **“Ən böyük fəlakətin gəldiyi zaman o gün insan nə üçün səy göstərdiyini düşünüb anlayar. Cəhənnəm isə hər görmə qabiliyyətliyə göstəriləcəkdir. (Naziat surəsi, 34-36)**

Düşünməyərək məsuliyyətlərdən qaça bildiklərini zənn edənlər, bəlkə uğrayacaqları sonu düşünər və Allahın dininə qayıdarlar deyə insanları düşünməyə çağırmaq möminlərin ibadətidir. Ancaq iman edənlər Quranda Rəbbimizin verdiyi hökmü bilərək hərəkət edərlər. Ayədə belə bildirilir:

**Artıq istəyən <u>öyüd alıb düşünər</u>. (Muddəssir surəsi, 55)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin

“Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya

Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə,

zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində,

canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır,

bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın

əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini

heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**